Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 127 (8150) CÜMƏ AXŞAMI, 13 iyun 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




## MİLLİ QURTULUŞ - 26



# Müstəqil dövlətçiliyin təntənəsi

Çoxəsrlik dövlətçilik tarixinə malik olan Azərbaycan xalqı XX əsrin əvvəllərində Xalq Cümhuriyyətinin (AXC) yaradılması ilə müstəqil demokratik dövlət qurmaq imkanlarına malik olduğunu nümayiş etdirmişdir. Dövlətçiliyimizin təşəkkül yolunu təhlil edən ulu öndər Heydər Əliyev 2003-cü il mayın 27-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 85 illiyi ilə əlaqədar Azərbaycan xalqına müraciətində milli dövlətçiliyin bu mühüm mərhələsinə qiymət verərək demişdir: "Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi".

Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini və milli ictimai fikri üzvi şəkildə birləşdirən yeni dövlət - cəmiyyət nümunəsi idi. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk respublika dövründə həyata keçirilən tədbirlər müstəqil dövlətçiliyimizin əsaslarının yaradılması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətdən asılı olmayaraq, bütün vətəndaşlara bərabər hüquqlar verilməsi, Azərbaycan dilinin dövlət dili elan edilməsi, təhsil və mədəniyyətin inkişafına xüsusi diqqət göstərilməsi, nizami milli ordunun, təhlükəsizlik strukturlarının qurulması və sair işlər Xalq Cümhuriyyəti hökumətinin yürütdüyü siyasətin miqyasını, mahiyyət və mənasını səciyyələndirir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin və dərin məzmunlu siyasi irsində Azərbaycanın çoxəsrlik dövlətçilik tarixi və ənənələrinə, o cümlədən müstəqil dövlətimizin varisi olduğu Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə və tarixi roluna münasibət olduqca böyük əhəmiyyətə malikdir. İstər Sovetlər İttifaqı zamanı daşıdığı yüksək dövlət vəzifələrində olduğu zamanlar, istərsə də 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, sonra isə Ali Məclisin Sədri olduğu vaxtlar və Azərbaycan Respublikasına rəhbərlik etdiyi on il ərzindəki dövrdə azərbaycançılıq və milli dövlətçilik ideyaları ulu öndərin nəhəng ictimai-siyasi fəaliyyətinin ideya əsaslarını təşkil etmişdir.

Xalqımızın ulu öndəri Heydər Əliyevin 1990-cı ildə Azərbaycana qayıdışı, təqiblərə məruz qalıb Bakıdan Naxçıvana getməsi ilk növbədə Naxçıvan Muxtar Respublikasının qorunması, onun düçar olduğu burulğandan və düşmən təcavüzündən xilas edilməsində həlledici rol oynamışdır. O dövrdə Naxçıvanda yaranmış çox mürəkkəb vəziyyətə baxmayaraq, ölkəmizdə demokratik dövlət quruculuğunun ilk və qətiyyətli addımları Heydər Əliyev tərəfindən məhz muxtar respublikada atılmışdır. Heydər Əliyevə xalqın yeganə rəhbəri və xilaskarı kimi baxan Naxçıvan əhalisinin iradəsi ilə 3 sentyabr 1991-ci il tarixində Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin Sədri seçilməsi isə Azərbaycan dövlətçiliyinin ilk atributlarının qəbulundan tutmuş, köklü inqilabi islahatlar da daxil olmaqla, müstəqilliyə aparan yolun və vasitələrin müəyyən edilməsinin meydana qoyulması ilə nəticələnmişdir.

Məhz görkəmli dövlət xadimi Heydər Əliyevin dərin zəkası və müdrikliyi, sovet idarə sisteminin bütün incəliklərini dərindən bilməsi nəticəsində Naxçıvan MR ərazisindəki sovet ordusu hissələrinin nizamlı şəkildə yola salınması, həmin hərbi hissələrin döyüş texnikası və silahlarının Naxçıvan hakimiyyətinə verilməsi ilə başa çatmışdır. Bu məqsədlə Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin fərmanı ilə Azərbaycanda ilk dəfə olaraq dövlət hərbi qurumu - Naxçıvan Dövlət Müdafiə Komitəsi yaradılmış və sovet hərbi hissələrinin texnika və silahları həmin quruma təhvil verilmişdir. Beləliklə, Naxçıvanın müdafiəsinin təmin olunması üçün ən zəruri addımlar atılmışdır. Bir çox könüllü peşəkar hərbçilər Heydər Əliyevin çağırışlarına yüksək vətənpərvərlik ruhu ilə səs verərək peşəkar səviyyədə hərbi sahədə çalışmağa qoşulmuşdur.

Heydər Əliyevin sədrliyi ilə keçən Naxçıvan MR Ali Məslisinin sessiyasında hələ 1990-cı ilin 17 noyabrında muxtar respublikanın adından "sovet sosialist" sözlərinin çıxarılması və Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağının iclas salonuna gətirilib, sovet bayrağını əvəz etməsi müstəqil dövlətçiliyin bərqərar edilməsi uğrunda mübarizə yolunda ilk mühüm tarixi addımlar sayıla bilər. Bundan başqa, Heydər Əliyev yeni ittifaq adı ilə SSRİ-ni dirçəltmək cəhdlərini qətiyyətlə rədd edərək deyirdi: "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır".

Heydər Əliyevin uzaqgörən və məqsədyönlü addımlarından biri də qonşu ölkələrin rəhbərləri ilə təmasa keçərək, Naxçıvan MR əhalisini iqtisadi fəlakətdən qurtarmaqdan ibarət idi. İqtidarda olan başabəla Xalq Cəbhəsi hakimiyyəti nə qədər qısqanclıqla yanaşsa da və müxtəlif vasitələrlə mane olmağa çalışsa da, Azərbaycan dövlətinin ilk xarici siyasət addımları Naxçıvanda atılmışdır.

Ardı 4-cü səh.

## Böyük Qayıdış - əbədi Qurtuluş

Azərbaycanın tarixində elə hadisələr olmuşdur ki, onlar yeni mərhələnin başlanğıcı kimi dövlətçiliyimizin salnaməsinə əbədi həkk olunub. Onlardan biri xalqımızın dahi oğlu, ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayında öz xilaskarlıq missiyasını yerinə yetirmək üçün xalqın təkidli tələbi ilə hakimiyyətə gəlişidir.

Heydər Əliyevin 1993-cü il iyun ayının 15-də Ali Sovetin Sədri seçilməsi ilə başlanan xilaskarlıq missiyası indi qürurla fəxr etdiyimiz güclü Azərbaycan dövlətinin qurulması ilə nəticələndi.

Müstəqillik xalq üçün, həm də hər bir vətəndaş üçün müqəddəs nemətdir. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq ondan da çətindir. Bu baxımdan 1993-cü ilin ortalarına doğru Azərbaycanda cərəyan edən siyasi proseslər təsdiq edirdi ki, güclü dövlət olmadan xalqın azadlığı və müstəqilliyi mümkün deyil. Güclü dövləti yaratmaq üçün isə ilk növbədə güclü liderə ehtiyac var. Müstəqilliyimizin kövrək olduğu 1993-cü ildə ölkədə daha da dərinləşmiş siyasi təbəddülatlar, iqtisadi böhran, siyasi hərc-mərcliyin doğurduğu anarxiya və cəbhədəki uğurzsuzluqlar Azərbaycana qətiyyətli, təcrübəli liderin rəhbərlik etməsini qaçılmaz zərurətə çevirmişdi. Bu proseslərin fonunda hakimiyyətin son dərəcə qətiyyətsizliyi, erməni təcavüzü nəticəsində torpaqlarımızın işğalı təsdiq edirdi ki, yalnız möhkəm siyasi iradəsi olan rəhbər Azərbaycanı parçalanmaqdan qurtarmaq, dövlət müstəqilliyimizi yaşatmaq kimi ağır missiyanın öhdəsindən gələ bilər. Bu lider isə xalqın məhəbbətini hələ çox-çox illər əvvəl qazanmış Heydər Əliyev idi.

Dövlət idarəçiliyindəki kobud səhvlərin məntiqi nəticəsi olaraq ağır sosial-iqtisadi gərginliyin pik həddinə çatdığı, ölkənin vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qaldığı, cəbhədə torpaqlarımızın itirildiyi, Azərbaycanın dağılmaq və parçalanmaq təhlükəsi ilə üzləşdiyi vaxtda xalqımızın Heydər Əliyevə üz tutması təsadüfi deyildi. Hər kəs yaxşı anlayırdı ki, ölkədəki hərc-mərcliyi, itaətsizliyi, anarxiyanı, siyasi çəkişmələri, Gəncədə başlanmış qardaş qırğınını, hərbi xəyanəti, qanunsuz silahlı dəstələrin Bakıya yürüşünü yalnız bu böyük insan aradan qaldıra bilərdi. Bunun üçün Naxçıvana - ulu öndərin ünvanına minlərlə teleqram göndərilirdi. Bu müraciətlər təkcə maddi-mənəvi iztirablara məruz qalan xalqın sadəcə vəziyyətdən çıxış yolu deyildi. Bu, həm də Azərbaycan dövlətçiliyinin yaşaması, hələ kövrək olan müstəqilliyimizin qorunması üçün xalqın verdiyi tarixi qərar idi.

Artıq o dövrdən 26 il ötür. Amma o tarixi mərhələnin reallıqlarını yada salanda bu gün də həyəcanlanmamaq olmur. Ölkəni separatizm bürümüşdü. Şimalda sadvalçılar, cənubda vətən xaini Ə.Hümbətov xarici mərkəzlərin diktəsi ilə Azərbaycanın parçalanması üçün əllərindən gələni edirdilər. Bir tərəfdən isə Ermənistan yeni hərbi əməliyyatlara başlamışdı. O dövrdə ölkəyə rəhbərlik edənlər faktiki olaraq respublikanı yaranmış böhrandan çıxarmaq qabiliyyətində deyildilər. Digər tərəfdən ovaxtkı iqtidarın səriştəsizliyi ölkədə hakimiyyətsizlik yaratmışdı. Siyasi və hərbi qruplar iqtidara tabe olmaqdan boyun qaçırır, öz diktələrini ortaya qoyurdular.

Ardı 4-cü səh.

# İlham Əliyev tarixi, dini, mədəni abidələrimizə xüsusi həssaslıqla yanaşır

Prezidentin Ehtiyat Fondundan ayrılmış vəsait hesabına "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu müasir standartlara uyğunlaşdırıldı



İyunun 12-də əsaslı şəkildə təmir və bərpa olunan "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Xatırladaq ki, 2017-ci il dekabrın 29-da Prezident İlham Əliyev "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunda olmuşdu. Dövlət başçısı o zaman buradakı çatışmazlıqları və qeyri-məqbul şəraitin olduğunu qeyd edərək, bunun ölkəmizin ümumi inkişaf səviyyəsinə uyğun gəlmədiyini bildirmişdi. Prezident İlham Əliyev oradaca qoruqdakı şəraitin qısa müddət ərzində müasir səviyyəyə çatdırılması barədə aidiyyəti dövlət qurumlarına ciddi tapşırıq vermişdi.

Dövlət başçısı qoruğun rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, qoruq yeni konsepsiyaya uyğun olaraq bərpa edilib. Abşeron rayonunun Məmmədli kəndində yerləşən "Yanardağ" abidəsinin ərazisi Prezident İlham Əliyevin 2007-ci ildə imzaladığı sərəncamla Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu elan edilib. Qoruğun fəaliyyəti Nazirlər Kabinetinin 2018-ci il 7 iyun tarixli müvafiq qərarına əsasən Dövlət Turizm Agentliyi tərəfindən tənzimlənir.

Ardı 2-ci səh.

## Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfrans və Sərgisinin iştirakçılarına

Hörmətli konfrans və sərgi iştirakçıları!

Sizi ölkəmizin paytaxtı Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar üzrə 2019-cu il Konfrans və Sərgisinin açılışı münasibətilə salamlayır, konfrans və sərginin işinə uğurlar arzulayıram.

Belə mötəbər tədbirin Bakı şəhərində keçirilməsini çox yüksək qiymətləndiririk.

Öz əlverişli coğrafi yerləşməsinə görə Asiya və Avropa qitələri arasında körpü rolunu oynayan ölkəmiz Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərində önəmli yer tutur. Azərbaycan mövcud nəqliyyat potensialını və tranzit imkanlarını artırmaqda daim maraqlıdır və bu sahədə irimiqyaslı infrastruktur layihələri həyata keçirərək böyük sərmayələr qoyur.

Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə daim böyük önəm verilmiş, informasiya cəmiyyətinin formalaşması və inkişafı məqsədilə müvafiq milli strategiyalar qəbul edilmişdir.

Cəmiyyətimiz üçün vacib olan elektron xidmətlərin təşkili, "elektron hökumət" üzrə genişmiqyaslı layihələrin həyata keçirilməsi, dövlət idarəçiliyində səmərəliliyin, şəffaflığın və operativliyin artırılmasını təmin edir.

Bu qlobal çağırışlar şəraitində Azərbaycanın gömrük xidmətində də ciddi işlər aparılır. Gömrük işi sahəsində rəqəmsal gömrük inzibatçılığının inkişaf etdirilməsi, biznes proseslərinin, gömrük nəzarətinin təşkilində, gömrük prosedurlarının sadələşdirilməsi və şəffaflığının artırılması istiqamətində ciddi layihələr həyata keçirilir və gömrük sahəsində müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqinə və istifadəsinə xüsusi önəm verilir.

Ümumdünya Gömrük Təşkilatının hər il keçirdiyi bu tədbirdə dünyada tətbiq olunan qabaqcıl yeniliklərin nümayiş etdirilməsi beynəlxalq əməkdaşlığın zəruriliyini bir daha təsdiq edir.

Ümumdünya Gömrük Təşkilatının "SMART sərhədlər üçün yeni texnologiyalar, Ticarət, Səyahət və Daşımalar üçün yeni imkanlar" mövzusunda Konfrans və Sərgisinin ölkəmizdə keçirilməsini alqışlayır, konfransın yekunları üzrə səmərəli nəticələrin əldə ediləcəyinə, aparılacaq müzakirələrin və keçiriləcək görüşlərin qarşılıqlı əməkdaşlıq əlaqələrinin dərinləşməsinə və bu sahədə yeni təşəbbüslərin meydana çıxmasına mühüm töhfə verəcəyinə ümid edirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 iyun 2019-cu il*

## Fransa məhkəməsi qondarma Dağlıq Qarabağ rejimi ilə imzalanmış daha 4 "dostluq xartiyası"nı ləğv edib

Fransanın Serji-Pontuaz məhkəməsinin Arnuvilin qondarma Dağlıq Qarabağdakı Şeher inzibati bölgəsi ilə "Dostluq haqqında xartiya"sını ləğv etməsinin ardınca Qrenobl inzibati məhkəməsi tərəfindən də bənzər qərar qəbul olunub. AZƏRTAC xəbər verir ki, bu barədə Fransadakı erməni diasporunun media orqanlarından olan "Nouvelles d'Armenie" saytı məlumat yayıb.

Məlumatda Qrenobl məhkəməsinin 4 "dostluq xartiyası"nı ləğv etdiyi bildirilir. Vurğulanır ki, prefektin müraciəti əsasında Qrenobl inzibati məhkəməsi iyunun 11-də Drom departamentinin özü, həmçinin bu departamentdə yerləşən Valans, Bur-le-Valans və Bur-dö-Peaj kommunaları ilə Azərbaycanın 25 ildən artıqdır işğal altında olan ərazilərindəki inzibati bölgələr arasında imzalanmış dörd xartiyanı ləğv edib.

Bu xartiyaların ləğv olunmasının səbəbləri kimi onların Fransanın xarici siyasət kursuna və beynəlxalq öhdəliklərinə uyğun gəlməməsi, həmçinin bu ölkənin ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi bitərəfliyini şübhə altına alması göstərilir.

# İlham Əliyev tarixi, dini, mədəni abidələrimizə xüsusi həssaslıqla yanaşır














*Əvvəli 1-ci səh.*

Dövlət başçısının ötən ilin iyulunda imzaladığı sərəncama əsasən "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun müasir standartlara uyğunlaşdırılması və ərazisində yeni turizm infrastrukturunun yaradılması məqsədilə 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan vəsait ayrılıb. Qoruğun bərpası Dövlət Turizm Agentliyinə həvalə olunub.

Aparılan yenidənqurma işləri çərçivəsində ümumi sahəsi 64,55 hektar olan qoruğun ərazisində 3 tematik zonadan ibarət muzey, açıq hava konsertləri üçün nəzərdə tutulan 500 nəfərlik amfiteatr, sənətkar emalatxanaları və mağazalar, yerli sənətkarlar tərəfindən keramika, şüşə, taxta və parça kimi təbii materiallardan hazırlanan suvenirlərin satışı məntəqəsi, parkinq turistlərin ixtiyarına verilib. 2007-ci ildən qoruq statusuna malik olan "Yanardağ"da, həmçinin ərazidə tapılan, yerli əhali tərəfindən istifadə edilmiş qədim daşlar və sənətkarlıq nümunələrinin, qaval daşının nümayiş etdirildiyi açıq hava muzeyi yaradılıb. Bundan əlavə, qoruq ərazisində yerli gənc rəssamların əsərlərinin nümayiş olunduğu kafe, əyləncə zonası, uşaqlar üçün oyun meydançası fəaliyyət göstərəcək. Fiziki məhdudiyyətli şəxslərin "Yanardağ" alovunun ətrafına enməsi üçün xüsusi yol çəkilib. Bütövlükdə qoruq ərazisi abadlaşdırılaraq müxtəlif ağaclar əkilib.

Qoruğun tərkibində Yanardağ - əbədiyaşar alov təbii abidəsi ilə yanaşı, digər maddi-mədəni irs nümunələri və təbiət abidələri də var. Bu abidələrə "Qurd yuvası" adlanan ilkin ibtidai icma dövrünə aid mağaralar, çoxəsrlik tarixə malik və qədim sanduqələrlə zəngin iki qəbiristanlıq, müalicəvi kükürdlü su bulaqları, hələ də aktiv fəaliyyətdə olan Qırməki palçıq vulkanı, Əlidaşı piri, Kardaşı iri təbii qaya daşları, Qırməki vadisi, qədim kurqan aiddir.

Ölkəmizdə mövcud olan tarixi, dini, mədəni abidələrin bərpası dövlət siyasətində mühüm yerlərdən birini tutur. Prezident İlham Əliyevin diqqəti sayəsində bu cür obyektlərin təmiri, bərpası, yenidən qurulması istiqamətində çox böyük işlər görülüb. Dövlət başçısının imzaladığı sərəncama əsasən "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun müasir standartlara uyğunlaşdırılması və ərazisində yeni turizm infrastrukturunun yaradılması da bu istiqamətdə görülən işlərin ardıcıl xarakter aldığını nümayiş etdirir. Azərbaycanda dövlət səviyyəsində bu istiqamətdə həyata keçirilən işlərə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da sanballı töhfələr verir. Bu layihələrin icrası bir neçə mühüm amili birləşdirir. İlk növbədə, bu işlər tarixi, dini, mədəni abidələrə dövlətimiz tərəfindən nə qədər həssaslıqla yanaşıldığını göstərir, Azərbaycanın qədim, tarixi diyar olduğunu bir daha sübut edir. Bundan başqa, turistləri cəlb etmək baxımından da "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun müasir standartlara uyğunlaşdırılması mühüm rol oynayır.

"Yanardağ" qoruğunda görülən işlərlə tanışlıqdan sonra xatirə şəkli çəkdirildi.

## Azərbaycan ilə Niderland Krallığı arasında əlaqələr əməkdaşlığın genişləndirilməsi işinə töhfə verir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının sabiq prezidenti, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası ilə Niderland Krallığı arasında əlaqələrin inkişafından məmnunluq bildirildi, Rene Van der Lindenin əməkdaşlığımızın genişləndirilməsi işinə verdiyi töhfə yüksək qiymətləndirildi.

Söhbət zamanı Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən nəqliyyat sahəsində Niderland şirkətlərinin iştirakının perspektivləri ətrafında fikir mübadiləsi aparıldı, gələcək əməkdaşlıq məsələlərindən danışıldı.



## Bakıda keçirilən beynəlxalq tədbirlər parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi baxımından önəmlidir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Almaniya Bundestaqının vitse-prezidenti Tomas Oppermannın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Almaniya Bundestaqının vitse-prezidenti Tomas Oppermann paytaxtımızda gördüyü dinamik inkişaf proseslərinin nümayəndə heyəti üzvlərinə dərin təəssürat bağışladığını bildirdi. Qonaq Bakıda keçirilən Regional Təhlükəsizlik və Əməkdaşlıq üzrə Parlament Konfransı və Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasının təsis konfransına toxunaraq bu tədbirin parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi, parlament diplomatiyasının gücləndirilməsi baxımından önəmini qeyd etdi.

Dövlət başçısı Bakıda keçirilən Regional Təhlükəsizlik və Əməkdaşlıq üzrə Parlament Konfransının və Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasının təsis konfransının beynəlxalq əlaqələrin gücləndirilməsində rolunu vurğulayaraq, bu tədbirin fikir mübadiləsinin aparılması, parlamentlərarası əməkdaşlığın genişləndirilməsi işinə töhfə verdiyini bildirdi.

Görüşdə Azərbaycan-Almaniya ikitərəfli münasibətləri, ölkəmizdə gedən iqtisadi inkişaf, o cümlədən kənd təsərrüfatı, turizm, informasiya texnologiyaları və digər sahələrdə mövcud əməkdaşlıq imkanları müzakirə edildi.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Azərbaycanda informasiya texnologiyaları sahəsi geniş potensiala malikdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya Bakıda keçirilən Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfransı və Sərgisinin yüksək səviyyədə təşkil olunmasına görə dövlət başçısına minnətdarlığını bildirdi və 50-dən artıq ölkənin, eləcə də özəl və ictimai sektorun nümayəndələrinin burada bir araya gəlməsini tədbirlərin önəminin göstəricisi kimi dəyərləndirdi. Qonaq Bakının mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrildiyini vurğulayaraq, ölkəmizdə göstərilən qonaqpərvərliyi yüksək qiymətləndirdi. Kunio Mikuriya, eyni zamanda, Azərbaycanın Ümumdünya Gömrük Təşkilatının Gömrük Əməkdaşlıq Şurasının sədr müavini, Avropa regionu üzrə rəhbər seçilməsi münasibətilə təbriklərini çatdırdı və qeyd etdi ki, Azərbaycan bu sahədə təkcə gələcəkdə Avropada deyil, daha geniş məkanda mühüm rol oynaya bilər. O, ölkəmizin informasiya texnologiyaları sahəsində uğurlu beynəlxalq əməkdaşlıq həyata keçirdiyini qeyd etdi.



Xoş sözlərə görə minnətdarlığını bildirən dövlət başçısı Bakıda keçirilən Ümumdünya Gömrük Təşkilatının İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfransı və Sərgisinin önəminə toxunaraq, paytaxtımızda mühüm beynəlxalq tədbirlərin keçirilməsinin artıq ənənə xarakteri daşıdığını qeyd etdi və bunun ölkəmizin inkişafına öz töhfəsini verdiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycanda informasiya texnologiyaları sahəsinin sürətlə inkişaf etdiyini, buraya böyük investisiyaların qoyulduğunu və bu sahənin geniş potensiala malik olduğunu vurğuladı.

Görüşdə ölkəmizin Ümumdünya Gömrük Təşkilatı ilə uğurlu əməkdaşlıq həyata keçirdiyi bildirildi, əlaqələrimizin perspektivləri barədə fikir mübadiləsi aparıldı.

## Azərbaycan ilə Türkiyə dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Türkiyə Böyük Millət Məclisinin vitse-spikeri Süreyya Sadi Bilgiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, parlamentlərarası əməkdaşlığın əlaqələrimizin möhkəmlənməsi işinə töhfə verdiyi vurğulandı.

Söhbət zamanı ölkələrimizin həyata keçirdiyi birgə qlobal enerji və nəqliyyat layihələrinin önəmi vurğulandı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı məsələlər müzakirə edildi, ikitərəfli münasibətlərimizin bundan sonra da möhkəmlənəcəyinə və inkişaf edəcəyinə əminlik bildirildi.

Görüşdə Bakıda keçirilən Regional Təhlükəsizlik və Əməkdaşlıq üzrə Parlament Konfransı və Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasının təsis konfransının beynəlxalq parlamentlərarası əməkdaşlığın genişləndirilməsi baxımından önəmi qeyd olundu.

## Astara rayonunun Pensərçay çayında sahilbərkitmə işləri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Astara rayonunun Pensərçay çayında sahilbərkitmə işlərinin görülməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 1,0 (bir) milyon manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,12 iyun 2019-cu il*

## "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 92-ci, 94-cü maddəsinin I hissəsinin 3-cü bəndini və 95-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1268-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 565; 2000, № 12, maddə 833; 2005, № 10, maddə 876; 2007, № 5, maddə 437; 2009, № 6, maddə 395; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71; 2016, № 1, maddə 34; Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1513-VQD nömrəli Qanunu) 12-ci maddəsinin ikinci hissəsinin ikinci abzasına "kiçik" sözündən əvvəl "mikro," sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 may 2019-cu il*

## "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 30 may tarixli 1601-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 30 may tarixli 1601-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 iyun 2019-cu il*

# Ölkəmizin ümumdünya elektron məkanına sürətli inteqrasiyası təmin edilib





İyunun 12-də Bakıda, Heydər Əliyev Mərkəzində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfrans və Sərgisi işə başlayıb.

AZƏRTAC xəbər verir ki, konfransın açılış mərasimində Azərbaycan Respublikasının Baş Naziri **Novruz MƏMMƏDOV** Prezident İlham Əliyevin tədbir iştirakçılarına ünvanladığı məktubu oxudu və çıxış etdi *(Məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur).*

Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya və tədbir iştirakçılarını salamlayan Novruz Məmmədov dedi: "Bugünkü tədbirdə siz - gömrük orqanlarının, sərhəd idarəçiliyi üzrə qurumların, işgüzar dairələrin nümayəndələri birlikdə gömrük işinin müxtəlif mövzularına həsr olunan aktual strateji yanaşmalarla bağlı müzakirələr aparacaqsınız. Konfransda sərhəd idarəçiliyinin, beynəlxalq ticarətin təhlükəsizliyinin və dayanıqlılığının təmin edilməsi kimi vacib məsələlər müzakirə olunacaq".

Baş Nazir qeyd etdi ki, Azərbaycan beynəlxalq təşkilatlarla, o cümlədən Ümumdünya Gömrük Təşkilatı ilə fəal əməkdaşlıq edir. Belə ki, Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin ölkəmizin paytaxtında yerləşməsi, eləcə də Azərbaycanın Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu üzrə sədr müavini vəzifəsinə seçilməsi əməkdaşlığımızın yüksək səviyyəsini göstərir.

"Ümumdünya Gömrük Təşkilatının bu mötəbər tədbirinin Bakı şəhərində keçirilməsi təqdirəlayiq haldır. Bakı son illər mədəniyyətlər, sivilizasiyalararası dialoq, idman, enerji, nəqliyyat və digər sahələrdə mühüm beynəlxalq tədbirlərə evsahibliyi edir. Bu konfransın da Bakıda keçirilməsi ölkəmizin mötəbər tədbirlərə evsahibliyi etməsi sahəsində qazandığı etimadın göstəricisidir", - deyə Novruz Məmmədov bildirdi.

Baş Nazir dedi ki, Azərbaycan əlverişli coğrafi mövqedə, beynəlxalq nəqliyyat dəhlizlərinin və informasiya magistrallarının kəsişdiyi məkanda yerləşir. Son illər respublikamız bu sahədə öz rəqabətqabiliyyətliliyini yüksəltmək məqsədilə böyük sərmayələr qoyur, regionda və ölkə daxilində irimiqyaslı infrastruktur layihələri həyata keçirir. 2008-ci ildən etibarən Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması ilə bağlı işlərə başlanılıb. Artıq Azərbaycan müxtəlif təyinatlı 3 peykini orbitə çıxarıb və dünyanın kosmik ölkələr klubunun üzvüdür. 2013-cü ilin Azərbaycanda "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilməsi bu sahənin inkişafına ən yüksək səviyyədə göstərilən diqqətin əyani təsdiqidir.

"Dövlət orqanlarında, o cümlədən gömrük sahəsində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə idarəçiliyin təkmilləşdirilməsi Azərbaycan üçün əsas vəzifələrdən biridir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət proqramları və islahatlar nəticəsində ölkəmizin ümumdünya elektron məkanına sürətli inteqrasiyası təmin edilib, elektron hökumətin, rəqəmsal iqtisadiyyatın, elektron kommersiya və data-mərkəzlərinin, texnoloji parkların, biznes inkubatorların yaradılması, informasiya təhlükəsizliyinin təmini istiqamətində mühüm addımlar atılıb. Hörmətli qonaqlar, sizi Azərbaycanda bir daha salamlayır, konfrans və sərginin işinə uğurlar arzulayıram", - deyə Novruz Məmmədov vurğuladı.

Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-leytenantı **Səfər MEHDİYEV** çıxışında tədbirin önəmini diqqətə çatdıraraq vurğuladı ki, Azərbaycanda əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən mütərəqqi siyasət nəticəsində bu gün bütün sahələrdə olduğu kimi, gömrük işinin müasir idarəçilik prinsipləri əsasında təşkili istiqamətində də mühüm nailiyyətlər əldə olunub.

Səfər Mehdiyev qeyd etdi ki, qlobal müstəvidə gömrük işi sahəsində tətbiq edilən informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlı qabaqcıl təcrübələrin öyrənilməsi üçün beynəlxalq əməkdaşlığın rolu vacibdir və Azərbaycan Gömrük Xidmətinin ÜGT ilə əməkdaşlığını bu mənada nümunəvi saymaq olar. DGK sədri vurğuladı ki, bu gün Heydər Əliyev Mərkəzində ÜGT-nin ən böyük tədbirinin keçirilməsi heç də təsadüfi deyil. İlk dəfə olaraq ÜGT-nin həm özəl, həm də dövlət sektoru üçün nəzərdə tutulan iki tədbiri - İnformasiya Texnologiyaları Sərgisi, Texnologiyalar və İnnovasiyalar Konfransı birləşdirilərək vahid tədbir çərçivəsində təşkil edilib.

Komitə sədri bildirdi ki, bu yeniliyə məhz Bakıda keçirilən tədbirdə imza atılması Azərbaycanın mötəbər tədbirlərə evsahibliyi etməsi işində qazandığı xüsusi rəğbət və etimadın göstəricisidir.

Öz növbəsində, Koreya Gömrük Xidməti İnformasiya və Beynəlxalq Məsələlər İdarəsinin Baş direktoru **Taeil KANG** çıxış edərək tədbir iştirakçılarını salamladı və ÜGT-nin İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfrans və Sərgisinə evsahibliyi etdiyi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə təşəkkürünü bildirdi.

Baş direktor bu tədbirin qarşıda duran vəzifələri bir daha müəyyənləşdirməkdə və problemlərdən çıxış yollarını aramaqda kömək edəcəyinə əmin olduğunu bildirdi, informasiya texnologiyaları sahəsindəki qabaqcıl təcrübələrdən danışdı.

ÜGT-nin Baş katibi **Kunio MİKURİYA** isə bildirdi ki, bugünkü konfrans aparıcı texnologiyaların və yeniliklərin mübadiləsi sahəsində yüksək səviyyədə təşkil edilib, tədbirdə ÜGT-nin qlobal texnologiyalar üzrə peşəkar ekspertlər qrupu iştirak edir. Əldə olunan nailiyyətləri bu tədbir çərçivəsində daha da inkişaf etdirmək niyyətində olduqlarını deyən Baş katib, tədbirdə daha çox ticarət, səyahət və nəqliyyat üçün yeni texnologiyalar mövzusunun seçildiyini diqqətə çatdırdı.

Kunio Mikuriya qeyd etdi ki, bu gün elektron kommersiya və elektron ticarətin inkişafı müşahidə olunur və bu, bizim yaşam tərzimizdir. Süni intellekt, blokçeyn, əşyalar interneti və sair sərhəd-keçid məntəqələrində idarə edilməsi iqtisadi inkişafa səbəb ola bilər. Baş katib onu da bildirdi ki, biz ölkələrin təcrübə və fikir mübadiləsindən yararlanır və konfransda müzakirələr apararaq gələcəkdə bu sahəni inkişaf etdirə bilərik.

Daha sonra tədbir iştirakçıları texnoloji yeniliklər və avadanlıqların nümayiş olunduğu sərgiyə baxdılar.

Konfrans işini sessiyalarla davam etdirdi. Sessiyalarda texnologiyaya əsaslanan qabaqcıl ticarət üzrə strategiyaların yenidən qurulması, gələcəyin yaşıl nəqliyyat və logistikasına sərhəd idarəçiliyinin münasibəti, maneəsiz sərhəd üçün smart hava limanları, daha təhlükəsiz və dayanıqlı ticarət üçün innovativ həllər, gələcəyə yönəlmiş nəqliyyat sahəsi ilə bağlı mövzular müzakirə olundu.

ÜGT-nin İnformasiya Texnologiyaları və Texnoloji İnnovasiyalar Konfrans və Sərgisi iyunun 14-dək davam edəcək.

# Dövlətlərarası münasibətlərdə parlament diplomatiyasının önəmi gündən-günə artmaqdadır

İyunun 12-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Almaniya Bundestaqının vitse-prezidenti Tomas Oppermannın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Oqtay Əsədov Azərbaycan-Almaniya əlaqələrinin qədim tarixə malik olduğunu deyib. Bildirib ki, 2016-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev "Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında" Sərəncam imzalayıb. Bu gün Almaniya-Azərbaycan əlaqələri çox yüksək səviyyədədir. Dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri bu baxımdan ikitərəfli münasibətlərin inkişafında əhəmiyyətli rol oynayır. Ölkələrimizin parlamentləri arasında da əlaqələr inkişaf edir. Bugünədək Azərbaycan ilə Almaniya arasında 77 hüquqi sənəd imzalanıb, 14 sənəd isə baxılmaqdadır.

Sədr qeyd edib ki, iqtisadi sahədə də münasibətlərimiz yüksək səviyyədədir. Ölkələrimiz arasında 2018-ci ildə ticarət dövriyyəsinin həcmi təqribən 1,9 milyard ABŞ dolları olub. Bu rəqəm ötən dövrün göstəricisindən təxminən 40 faiz çoxdur. Cari ilin birinci rübündə ticarət dövriyyəsinin həcmi 590 milyon ABŞ dolları təşkil edib. Təsadüfi deyil ki, Almaniyanın Cənubi Qafqaz regionu ölkələri ilə ümumi ticarətində ötən il Azərbaycanın payı 70 faizdən çox olub. Həmin ilin statistik göstəricilərinə görə, Almaniyanın xam neft idxalında Azərbaycan 8-ci yerdə qərarlaşıb. 2004-2017-ci illərdə ölkəmizdə 201 alman şirkəti qeydiyyata alınıb.

"Müstəqil Azərbaycan Avropa İttifaqı və onun önəmli üzvü olan Almaniya ilə əlaqələrin daha da dərinləşməsində maraqlıdır. Bu gün Azərbaycan Avropanın neft və qaz təchizatında əhəmiyyətli rol oynayır. Azərbaycanın təşəbbüsü və yaxından iştirakı ilə reallaşmış neft və qaz kəmərləri bunun əyani sübutudur. Ölkəmiz həm də Avropanı Asiya ilə daha da yaxınlaşdıracaq yeni Dəmir İpək yolu ideyasının reallaşmasına öz töhfəsini verib",- deyə parlament Sədri vurğulayıb.

Oqtay Əsədov bildirib ki, dövlətlərarası münasibətlərdə parlament diplomatiyasının önəmi gündən-günə artmaqdadır. Hər iki ölkənin parlamentlərində dostluq qrupları fəaliyyət göstərir. Almaniyanın hökumət və parlament üzvləri dəfələrlə Milli Məclisin qonağı olublar. Biz nümayəndə heyətlərinin qarşılıqlı səfərlərini əhəmiyyətli hesab edirik.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söz açan Oqtay Əsədov bildirib ki, Azərbaycan münaqişənin tezliklə beynəlxalq hüquq normaları çərçivəsində, ölkələrin ərazi bütövlüyü prinsipi əsasında həllinin tərəfdarıdır.

Almaniya Bundestaqının vitse-prezidenti Tomas Oppermann Bakıya ilk dəfə səfər etdiyini və burada gördüklərindən məmnun qaldığını bildirib. Qeyd edib ki, Azərbaycanda dini tolerantlıq, siyasi sabitlik mövcuddur. Azərbaycan və Almaniya arasında ortaq dəyərlər və müxtəlif məsələlər üzrə fikir birliyi var. Tərəfləri düşündürən bir sıra məsələlər üzrə dialoqun aparılması və parlament diplomatiyasının imkanlarından istifadə olunması, münaqişələrin sülh yolu ilə həll edilməsi önəmli məsələlərdəndir. Bu baxımdan Milli Məclisin təşəbbüsü ilə Bakıda keçirilən regional təhlükəsizlik və əməkdaşlıq üzrə parlament konfransı və Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasının təsis konfransının əhəmiyyəti böyükdür.

Söhbət zamanı bildirilib ki, Almaniya Cənubi Qafqaz bölgəsində özünəməxsus yer tutan Azərbaycanla əlaqələrin inkişafına böyük diqqət yetirir və gələcəkdə münasibətləri daha da dərinləşdirmək niyyətindədir.

Görüşdə Almaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun başçısı Xanlar Fətiyev, ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev, ölkəmizin Almaniyadakı səfiri Ramin Həsənov və digər rəsmi şəxslər iştirak ediblər.

***AZƏRTAC***
***Foto Ağaəli MƏMMƏDOVUNDUR***

# Müasir dövrdə davamlı sülh münasibətlərinin qurulmasına ciddi ehtiyac var

İyunun 12-də Bakıda regional təhlükəsizlik və əməkdaşlıq üzrə parlament konfransı və Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasının təsis konfransı keçirilib. AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycan Respublikası Milli Məclisinin təşkilatçılığı ilə reallaşıb.



Konfransın keçirilməsində məqsəd regional təhlükəsizliyə təhdid yaradan amillərin qarşısının alınması yollarını, qarşılıqlı inam və dialoqun gücləndirilməsi, iştirakçı ölkələr arasında əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə yüksəldilməsi, nəqliyyat və enerji sahələrində əlaqələrin inkişaf etdirilməsi məsələlərini müzakirə etmək, həmçinin Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasını yaratmaqdır.

Tədbirdə çıxış edən ATƏT Parlament Assambleyasının vitse-prezidenti, Milli Məclisin deputatı Azay Quliyev bildirib ki, mövcud çağırışların birgə həlli, regionda sülh və təhlükəsizliyin bərqərar olması naminə beynəlxalq təşkilatların, regional və qlobal güclərin əməkdaşlıq və dialoq imkanlarının genişləndirilməsinə, bu istiqamətdə yeni yanaşmalara və təşəbbüslərə ciddi ehtiyac var. Bu baxımdan ATƏT PA-nın iştirakı ilə Regional Təhlükəsizlik və Əməkdaşlıq üzrə Parlament Konfransının Bakıda keçirilməsinin, Almaniya, Türkiyə və Azərbaycandan olan parlamentarilərin ilk dəfə olaraq belə formatda bir araya gələrək regionu narahat edən məsələləri müzakirə etməyə başlamasının çox böyük əhəmiyyəti və siyasi perspektivi var.

ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tsereteli çıxış edərək konfransın əhəmiyyətindən danışıb. O bildirib ki, ATƏT üzv dövlətlər arasında əlaqələrin inkişafını təşviq edir. Münaqişələrin həlli, problemlərin aradan qaldırılması üçün dialoq ən optimal yoldur. Georgi Tsereteli inandığını bildirib ki, bu gün aparılacaq müzakirələr qarşılıqlı dialoqun daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcək.

Milli Məclisin Sədr müavini Bahar Muradova həssas məqamlarla zəngin müasir dövrdə Azərbaycanın belə bir tədbirə evsahibliyi etməsinin qürurverici olduğunu deyib. Bahar Muradova belə bir platformanın yaradılmasının beynəlxalq hüququn prinsiplərinə tam uyğun olduğunu deyib. Qeyd edib ki, müasir dövrdə davamlı sülh münasibətlərinin qurulmasına ciddi ehtiyac var. Bakı Parlament Platforması gələcəkdə öz ətrafında daha çox tərəfdaş toplaya və münaqişələrin həllində böyük rol oynaya bilər. Bu platformanın əsas hədəflərindən biri də əməkdaşlığı inkişaf etdirmək olacaq. Bu platforma vasitəsilə gücümüzü və səylərimizi birləşdirərək beynəlxalq miqyasda da münaqişələrin həllinə öz töhfəmizi verə bilərik.

Almaniya Bundestaqının vitse-prezidenti Tomas Oppermann da yeni platformanın regional və beynəlxalq münaqişələrin həllində mühüm rol oynayacağına inandığını bildirib. O, yeni platformanın Azərbaycanın münaqişələrin həlli işinə növbəti töhfəsi olduğunu deyib. Azərbaycan ilə Almaniya arasında sıx münasibətlərin olduğunu deyən T.Oppermann bu əlaqələrin daha da intensivləşdiyini deyib.

Türkiyə Böyük Millət Məclisinin vitse-spikeri Süreyya Sadi Bilgiç belə bir platformanın yaradılmasının bir çox baxımdan böyük əhəmiyyətə malik olduğunu deyib. O əmin olduğunu bildirib ki, platforma çərçivəsində aparılacaq müzakirələr münaqişələrin həllinə böyük töhfə verəcək. Süreyya Sadi Bilgiç belə bir təşəbbüsün Azərbaycan tərəfindən irəli sürülməsinin Türkiyə üçün də qürurverici olduğunu deyib.

Regionda sabitliyə təhdid olan və 30 ilə yaxındır ki, davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan vitse-spiker Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu bir daha xatırladıb.

Tədbir çərçivəsində "Siyasi dialoqun, regional əməkdaşlığın və təhlükəsizliyin möhkəmləndirilməsinə yönəlmiş mexanizmlərin genişləndirilməsi üçün yeni imkanlar" mövzusunda panel iclas da keçirilib.

Panel müzakirələrdə çıxış edən Milli Məclisin deputatı Sahibə Qafarova Azərbaycanın dünyada sülh və təhlükəsizlik təşəbbüslərinə daim dəstək verdiyini deyib. Qeyd edib ki, Azərbaycanın işğalçı Ermənistan dövləti istisna olmaqla bütün region ölkələri ilə sıx əlaqələri var. Qonşu dövlətlərlə reallaşdırılan böyük iqtisadi layihələr bu münasibətlərin möhkəmləndirilməsi baxımından əhəmiyyətli rol oynayır.

Almaniya Bundestaqının deputatı Edqar Franke Azərbaycandakı iqtisadi inkişafın və sabitliyin yüksək olduğunu deyib. Azərbaycan insan hüquqları sahəsində böyük uğurlara imza atıb. Azərbaycan Almaniyanın ən vacib tərəfdaşlarındandır. İnanırıq ki, ölkələrimiz arasında əlaqələr bundan sonra qarşılıqlı etimad xətti üzrə inkişaf edəcək.

Türkiyə Böyük Millət Məclisinin deputatı Mustafa Hilmi Dülger deyib ki, insanların rifahının yaxşılaşdırılması beynəlxalq əməkdaşlığı gücləndirmədən mümkün deyil. Regional səviyyədə sağlam münasibətlər olmadan iqtisadi əlaqələr çox çətindir. Bu baxımdan bu gün yaradılan platforma böyük əhəmiyyətə malikdir.

Sonda konfrans iştirakçıları birgə foto çəkdiriblər.

# Cəbhə xəttində törədilən qanlı təxribatlar danışıqlar prosesinə ciddi xələl gətirir

Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tsereteli ilə görüşüb. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Elmar Məmmədyarov Avropanın təhlükəsizlik sistemində ATƏT-in və o cümlədən ATƏT PA-nın mühüm rol oynadığını qeyd edərək ATƏT PA-nın prezidentinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinin son vəziyyəti haqqında ümumi məlumat verib. O, Ermənistan rəhbərliyinin son bəyanatlarına və cəbhə xəttində törədilən qanlı təxribatlara toxunaraq belə məsuliyyətsiz davranışın danışıqlar prosesinə ciddi xələl gətirdiyini vurğulayıb. Azərbaycanın danışıqlar prosesində mövqeyinin dəyişilməz olduğunu vurğulayan nazir işğal edilmiş ərazilərimizdən Ermənistan silahlı qüvvələrinin çıxarılması və azərbaycanlı məcburi köçkünlərin öz torpaqlarına geri qayıtmasının danışıqların təməlini təşkil etdiyini söyləyib.

Öz növbəsində, George Tsereteli Azərbaycana səfər etməsindən məmnuniyyət hissi keçirdiyini bildirərək Prezident İlham Əliyev tərəfindən qəbul edildiyini xüsusilə vurğulayıb. O, ATƏT PA-ya rəhbərlik etdiyi dövrdə bu önəmli məsələlərə böyük diqqət ayırdığını, münaqişələr və onların humanitar fəsadlarının aradan qaldırılması və yumşaldılmasına, habelə edilən vasitəçilik səylərinə parlament müstəvisində də dəstəyin göstərilməsinin vacib vəzifə olduğunu qeyd edib. G.Tsereteli ATƏT PA-nın bu məqsədlə müxtəlif cür təmas imkanlarını təmin etməyə hazır olduğunu söyləyib.

Görüş əsnasında tərəflər Azərbaycanın ATƏT PA-nın işində məhsuldar iştirak etdiyini və qurumun fəaliyyətinə mühüm töhfə verdiyini razılıqla qeyd edərək əməkdaşlığın gündəliyində duran bir sıra məsələləri müzakirə ediblər və ATƏT məkanında parlament əməkdaşlığı istiqamətinin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıblar.

Söhbət zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

# Düşmən vəziyyəti gərginləşdirmək üçün törətdiyi təxribatları ört-basdır etmək istəyir

Xəbər verdiyimiz kimi, Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Azərbaycan Ordusunun mövqeləri minaatanlardan atəşə tutulub.

Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən mövqelərimizin minaatanlardan atəşə tutulması ilə bağlı sorğuya cavab olaraq Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən açıqlamada bildirilib: "Bu gün düşmən tərəfindən atəşkəs rejiminin kobud şəkildə pozulması və mövqelərimizin 60 millimetrlik minaatanlardan atəşə tutulması barədə tərəfimizdən rəsmi məlumat verilib. Düşmən qoşunların təmas xəttində növbəti dəfə vəziyyəti gərginləşdirmək məqsədilə törətdiyi təxribatları ört-basdır etmək üçün özünəməxsus şəkildə yalan və iftiralarla dolu bəyanatla çıxış edərək faktı təkzib etməyə cəhd göstərib. Düşmən tərəfindən bölmələrimizin minaatanlardan atəşə tutulması faktını təsdiqləyən fotomaterialları KİV-ə təqdim edirik".

# MİLLİ QURTULUŞ

## - SÜRƏTLİ İNKİŞAF, MÜSTƏQİL SİYASƏT VƏ QÜDRƏTLİ DÖVLƏT QURUCULUĞU MƏRHƏLƏSİ

1993
2019

# Böyük Qayıdış - əbədi Qurtuluş

Əvvəli 1-ci səh.

Bu günlərdə AXC-Müsavat iqtidarı zamanı may ayının 26-da dövlət başçısı yanında keçirilmiş iclasın protokolu mətbuatda yayıldı. Həmin protokol da o zaman ölkədəki siyasi böhranın nə qədər dərin olduğunu və mövcud iqtidarın problemlərin qarşısında aciz qaldığını göstərir. Aydın görünür ki, dövlət idarəetmə aparatı öz qarşısında dayanan vəzifələri yerinə yetirə bilmir, hər sahədə özbaşınalıq baş alıb gedirdi. Və bütün bu proseslərin məntiqi sonluğu iyunun əvvəllərində Gəncədə qan tökülməsi ilə nəticələndi.

Haqlı olaraq bu gün hər kəs bu fikirdədir ki, əgər o dövrdə ölkəyə Heydər Əliyev rəhbərlik etmiş olsaydı, Azərbaycan dövləti və xalqı faciələrlə üzləşməzdi. Nə torpaqlarımız itirilərdi, nə hakimiyyət böhranı yaranardı, nə də cənub və şimal rayonlarında separatizm baş qaldırardı. Hakimiyyətdə olan siyasi qüvvələr də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin dahiliyini, böyüklüyünü anlayır, onu özlərinə potensial rəqib kimi görür və buna görə də xalqımızın böyük oğlunu sıradan çıxarmaq barədə düşünürdülər. Bu niyyətin gerçəkləşməsi üçün hətta 1992-ci ilin oktyabrında Naxçıvanda Heydər Əliyevə qarşı çevriliş etməyə, onu Naxçıvan Ali Məclisinin Sədri vəzifəsindən devirməyə cəhd etmişdilər. Heydər Əliyevə qarşı hazırladıqları məkrli planları iflasa uğrayan hakimiyyət 1993-cü ilin iyun ayında baş verən Gəncə hadisələrindən sonra özü ulu öndərə müraciət etməli oldu və vəziyyətdən çıxış yolunu ilk növbədə Heydər Əliyevin Bakıya dəvət edilməsində gördü.

28 May Respublika Günü münasibətilə keçirilən rəsmi qəbulda çıxış edən Prezident İlham Əliyev həmin dövrün təhlilini verərək dedi: *"Çox ağır, faciəvi illər idi. 1992-ci ildə AXC-Müsavat rejimi hakimiyyəti qanunsuz şəkildə zəbt etdikdən sonra vəziyyət daha da ağırlaşdı, pisləşdi. Ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Məhz o illərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi alovlanmış və torpaqlarımız işğal altına düşmüşdü. Ölkəmizdə xaos, total böhran hökm sürürdü, iqtisadiyyat iflic vəziyyətdə idi. Əlbəttə ki, Azərbaycan xalqı çıxış yolu axtarırdı. Onu da əlavə edim ki, AXC-Müsavat rejimi ölkədə vətəndaş müharibəsini başlamışdı. Xalqımız nicat yolunu Heydər Əliyevin simasında gördü, onu hakimiyyətə dəvət etdi və bir daha öz müdrikliyini təsdiqlədi".*

Heydər Əliyev Bakıya iyun ayının 9-da gəldi. Dövlətçiliyimizin müqəddəratının həll olunduğu belə bir məqamda dahi öndərin gəlişi respublika əhalisində böyük ümidlər yaratdı. Azərbaycanın siyasi-ictimai həyatında xoş ovqat, cəmiyyətdə yüksək əhvali-ruhiyyə baş qaldırdı. Bakı sakinləri "Heydər baba, xalqı bu bəladan qurtar!" kimi şüarlarla ulu öndəri qarşılamaq üçün hava limanına yollanmışdılar. Heydər Əliyev də çox dəqiq bilirdi ki, o ağır, qarışıq günlərdə özünü irəli verməsə, kövrək olan müstəqillik əldən veriləcək, dövlətçilik məhv olacaq, xalq didərgin düşəcək. Ulu öndərin böyüklüyü həm də onda idi ki, hakimiyyətin ona qarşı həyata keçirdiyi təxribatları, qarayaxma kampaniyasını bir kənara qoyub, o ağır və keşməkeşli günlərdə xalqın köməyinə tələsdi.

Bakıya gələndən sonra Heydər Əliyevdən Ali Sovetə sədrik etməsi xahiş olunsa da, ulu öndər vəziyyətin son dərəcə təhlükəli olmasına baxmayaraq əvvəlcə vəziyyətlə tanış olmaq üçün Gəncəyə səfər etdi. Hadisələrin daha faciəli nəticələrə gətirib çıxarmaması üçün öz ağsaqqal sözünü dedi. Elə bu səfərlə də ulu öndər ölkədə vətəndaş qarşıdurmasının genişlənməsinin qarşısını aldı. Yalnız Heydər Əliyev kimi güclü və dəmir iradəli şəxsiyyət öz çiynini belə ağır, son dərəcə məsuliyyətli yükün altına verə bilərdi. Bu addımı yalnız vətəni və xalqı naminə hər cür fədakarlığa hazır olan adam ata bilərdi.





Bakıya gəldiyi gündən öz xilaskarlıq missiyasını layiqincə yerinə yetirən, ölkədə qardaş qırğınının qarşısını alan Heydər Əliyevin xalqın təkidli tələbi və yenilməz iradəsi ilə iyun ayının 15-də Ali Sovetin Sədri seçilməsi ulu öndərə olan böyük inamın bariz təsdiqi idi. Ağır sarsıntılar içərisində olan xalq iyunun 15-də dərindən nəfəs aldı, sanki çiyinlərdən ağır yük götürüldü. Çünki hamı inanırdı ki, Heydər Əliyev ölkəni düşdüyü böhranlı vəziyyətdən mütləq xilas edəcək. Belə də oldu. Heydər Əliyevin Ali Sovetin Sədri seçilməsi xalqımızın gələcək taleyini müəyyən etdi. Həmin vaxtdan başlayaraq müstəqil Azərbaycan dövləti anarxiyadan sabitliyə, inkişafa doğru istiqamət götürdü. Ümummilli lider qısa vaxtda ölkədə sabitliyi və əmin-amanlığı bərpa etdi, Azərbaycanın tarixində yeni dövrün-faktiki müstəqilliyin, demokratiya və inkişaf mərhələsinin başlanğıcı qoyuldu.

Bu mənada ulu öndərin ölkənin ali qanunvericilik orqanına sədr seçilməsi, sözün əsl mənasında, möhtəşəm siyasi hadisə kimi tariximizə yazıldı. Heydər Əliyevin xilaskarlıq missiyası ilə gəlişi dövlətçilik tariximizin şanlı səhifəsinə daha bir şərəfli gün yazdı. 15 iyun tarixə Milli Qurtuluş Günü kimi daxil oldu.

Milli Qurtuluş Günü yalnız Azərbaycan dövlətçiliyinin və xalqımızın faciələrdən qurtulduğu gün deyil, bu, həm də iqtisadiyyatımızın, mədəniyyətimizin, mənəviyyatımızın qurtuluşudur. Məhz Milli Qurtuluş Günü kimi tariximizə əbədi həkk olunmuş bu gün bizə xalqımızın rifah və təhlükəsizlik şəraitində yaşayışını təmin edən, dünya birliyinin tamhüquqlu üzvü olan dövlət bəxş etdi. Bu gün hər bir azərbaycanlı harada yaşamasından asılı olmayaraq qurucusu və memarı ulu öndər Heydər Əliyev olan dövlətimizlə fəxr edir.

Bir məqamı da qeyd etmək yerinə düşərdi. Ulu öndər Heydər Əliyev 1993-cü ildə ölkəyə rəhbərliyə başlayanda Azərbaycanın dövlət büdcəsi tamamilə boş idi. Büdcədə qalan cəmi 6 milyon dollar vəsait isə taxıl almaq üçün Taxıl Məhsulları Dövlət Şirkətinə köçürülmüşdü. Amma nə taxıl gəldi, nə də pul geri qayıtdı. Şirkətə rəhbərlik edən Əli Məmmədov isə ölkədən qaçdı. AXC-Müsavat iqtidarı dövlət büdcəsini belə talayırdı. Bunun nəticəsi idi ki, sonrakı dövrdə ölkədə əhalinin çörəklə təminatında ciddi çətinliklər yaranmışdı. Lakin Heydər Əliyevin sayəsində qıtlıq baş vermədi və problem ən qısa zamanda həllini tapdı.

1993-cü ildən başlanan Heydər Əliyev siyasəti bu gün də Azərbaycana möhtəşəm uğurlar gətirməkdə davam edir. Ulu öndərin siyasi kursu bu gün cənab Prezident tərəfindən layiqincə davam etdirilir. 2003-cü ildən başlayaraq Prezident İlham Əliyev xalqımızın ümummilli liderinin başlamış olduğu siyasi kursu davam etdirərək milli tərəqqimizin yeni mərhələsinin başlanğıcını qoydu. Bunun nəticəsidir ki, ötən 16 ildə Azərbaycan sürətlə inkişaf edib, iqtisadiyyatımız 3 dəfə artıb. Bakıda, ölkənin hər yerində genişmiqyaslı abadlıq və quruculuq işləri həyata keçirilib. Ən əsası odur ki, bu dövrdə Azərbaycan qlobal enerji və iqtisadi layihələri qətiyyətlə həyata keçirib. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, "Cənub qaz dəhlizi" Azərbaycanın dünyada nüfuzunu artıran möhtəşəm infrastruktur qurğuları ölkəmizin inkişafına, xalqın sosial rifahının yüksəldilməsinə xidmət edir.

2003-cü il prezident seçkiləri ərəfəsində dahi öndər Azərbaycan xalqına müraciət edərkən demişdi: *"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıracaq".* Ötən 16 ildə qazanılan uğurlar göstərir ki, Prezident İlham Əliyev Heydər Əliyevin arzularını reallığa çevirib, Azərbaycanı ulu öndərin görmək istədiyi inkişaf səviyyəsinə çatdırıb.

Heydər Əliyev Azərbaycanın taleyinin sınağa çəkildiyi zamanlarda xilaskarlıqdan başlamış, müstəqil dövlətimizin yaşadılması kimi şərəfli missiyanı uğurla, uzaqgörənliklə, müdrikliklə yerinə yetirdi. Hüquqi və demokratik dövlət quruculuğunu həyata keçirdi.

*Prezident İlham Əliyev ulu öndərin yaratdığı təməlləri daha da möhkəmləndirir. Azərbaycan ildən-ilə inamla yüksəlir, regionun lider dövləti kimi beynəlxalq məsələlərdə söz sahibi kimi çıxış edir. Bu inkişaf və yüksəliş ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolunun alternativsizliyini tam dolğunluğu ilə təsdiq edir.*

***Eldar QULİYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədr müavini, iqtisad elmləri doktoru, professor***

# Müstəqil dövlətçiliyin təntənəsi

Əvvəli 1-ci səh.

Heydər Əliyev Ali Məclisin deputatlarına, alimlərə, jurnalistlərə təkidlə Naxçıvanın yaxın tarixini, Moskva və Qars müqavilələrini və həmin dövrün tarixi dərslərini öyrənməyi tövsiyə etmiş, əvvəlki tarixi təcrübələri nəzərə alaraq ölkəmizin bu qədim guşəsini qoruyub saxlamaq üçün Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə həmin ölkələrin dövlət başçıları səviyyəsində görüşlər keçirmiş, sənədlər imzalamış və qarşıya qoyduğu məqsədlərə nail olmuşdur. Belə uzaqgörən tədbirlərin nəticəsi idi ki, Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəl Naxçıvana gəlmiş, Araz çayı üzərində Naxçıvan Muxtar Respublikasını, beləliklə də Azərbaycanı Türkiyə ilə bir-birinə bağlayan Ümid körpüsünün rəsmi açılışında iştirak etmişdir. Heydər Əliyevin İran prezidenti Haşemi Rəfsəncaninin dəvəti üzrə Tehranda səfərdə olması, blokadada olan Muxtar Respublikaya İran tərəfindən zəruri yardımlar göstərilməsinə nail olması da müstəqil ölkəmizin xarici siyasətinin xüsusi səhifəsidir. Bakıda bütün bunları qısqanclıqla izləyən, hətta əngəllər yaradan qüvvələrə məhəl qoymayan ulu öndər öz diplomatik tədbirləri ilə erməni işğalçılarını da Naxçıvana həmlə etməkdən çəkindirməyi bacarmışdır.

Xalqın böyük xilaskarı olan Heydər Əliyevə qarşı bir neçə dəfə çevriliş cəhdləri edən ozamankı ölkə hakimiyyətinin bəzi nümayəndələri hətta onu Naxçıvan rəhbərliyindən uzaqlaşdırmaq niyyəti ilə buranın muxtar respublika statusunu ləğv etməyi, bununla guya Azərbaycan Respublikasının unitarlığını "təmin etməyi" irəli sürürdülər. Hakimiyyət nümayəndələrinin uğursuz cəhdləri ulu öndər tərəfindən qətiyyətlə dəf edilmiş, Ali Məclisdəki müzakirələrdə bu kimi iddiaların Azərbaycan dövlətçiliyinə zərbə vurması, muxtar respublika statusunun Naxçıvanın xilas yolu, təhlükəsizliyinin təminat yolu, inkişaf yolu olduğu diqqət mərkəzinə çəkilmişdir.

Məlum olduğu kimi, 1990-cı illərin əvvəllərindən ölkədə başlayan hakimiyyət böhranı bu və ya digər şəkildə 1993-cü ilin 15 iyun tarixinədək davam etmiş və xarici təsirlərlə yanaşı, xalqa zidd daxili qüvvələrin də müstəqilliyin ilk və çətin illərində təxribatçı fəaliyyətləri, kənardan qızışdırılıb dəstəklənən bölücülük, separatçılıq hərəkətləri, millətin və dövlətin taleyinə hakimiyyətdəki müəyyən qüvvələrin laqeydliyi ölkəmizi dərin uçurumun bir addımlığına gətirib çıxarmışdı. Daxili çəkişmə və ziddiyyətlər, hakimiyyətdaxili şəxsi və qrup mənafelərinin toqquşması xalqı və dövləti çıxılmaz bir xaosa sürükləmişdi. Belə bir mürəkkəb ictimai-siyasi şəraitdə Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi, sözün əsl mənasında, mühüm tarixi əhəmiyyətə malik olan böyük Qurtuluş missiyası idi. 15 iyun 1993-cü ildə Heydər Əliyevin Azərbaycan Respublikasının Milli Məclisinin Sədri seçilməsi, sonra Prezident səlahiyyətlərinin icrasına başlaması, xalqın yekdil səsverməsi ilə 3 oktyabr 1993-cü il tarixdə ölkəmizin rəhbəri vəzifəsinə seçilməsi Azərbaycan xalqının dövlət müstəqilliyində, eləcə də dövlətçiliyin qorunub saxlanması və inkişaf etdirilməsində tarixi dönüş nöqtəsi olmuşdur.

Məhz görkəmli dövlət xadimi Heydər Əliyevin daxili və xarici siyasət kursunun məqsədyönlülüyünə, dönməzliyinə və perspektivliyinə inam 1994-cü ilin sentyabrında, hakimiyyət böhranından cəmi bir il sonra, haqlı olaraq "Əsrin müqaviləsi" adını almış neft kontraktının bağlanmasına yol açmışdır. Heydər Əliyev bu barədə demişdir: "Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyada bir daha nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Azərbaycan Respublikasının müstəqil demokratik, hüquqi dövlət olduğunu nümayiş etdiririk".

Məlumdur ki, yeraltı təbii sərvətlərimizin müstəqil dövlətimizin inkişafına yönəldilməsi məqsədinə xidmət edən neft siyasətinin əsası hələ Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1970-ci illərdən qoyulmuşdur. Belə ki, ulu öndər sovet hakimiyyəti dövründə böyük uzaqgörənliklə öz ölkəsinin, xalqının taleyini düşünərək dənizdə Dərin Özüllər Zavodunun məhz Azərbaycanda yaradılmasına nail olmuşdur. Halbuki o zaman rəsmi Moskva bu zavodu Həştərxan vilayətində qurmaq niyyətində idi.

Ulu öndər Heydər Əliyev 14 iyul 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə irəli sürüləndə Ümumittifaq miqyasında sosial-iqtisadi inkişafın səviyyəsinə görə sonuncu yerlərdən birini tutan Azərbaycanın vəziyyəti olduqca çətin idi. Heydər Əliyevin ideyaları, fikirləri, proqnozları əsasında, məqsədyönlü təşkilatçılığı, rəhbərliyi və tələbkarlığı nəticəsində qısa zaman ərzində keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycanda ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni sahələrdə dinamik inkişaf, görünməmiş artım templəri əldə olunmuşdur. Çox sonralar Heydər Əliyev ötən əsrin 70-ci illərində həyata keçirdiyi islahatları xatırlayaraq demişdir: "1970-1983-cü illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur..."

Hakimiyyətə gəldiyi ilk gündən sovet sisteminin siyasətini dərindən bilən ümummilli lider Heydər Əliyev dövlətçiliyin və milli-mənəvi dəyərimizin əsas tərkib hissəsi kimi dil məsələsinə xüsusi diqqətlə yanaşmışdır. Bu elə bir dövr idi ki, dövlət idarəçiliyindən, inzibati idarə sistemlərindən, elmdən, mədəniyyətdən, təhsildən sıxışdırılan milli dillər məişət səviyyəsinə endirilmiş, bütün müttəfiq respublikalarda olduğu kimi Azərbaycanda KP-nin qurultayları, MK-nın plenumları bir qayda olaraq rus dilində aparılmışdır. Belə bir çətin şəraitdə Heydər Əliyev 1 noyabr 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda ana dilində çıxış etməklə Azərbaycan dilinin təbliğinin əsasını qoymuşdur. Eyni zamanda, 1978-ci ildə Azərbaycan dilinin Azərbaycan Sovet Respublikasının Konstitusiyasına dövlət dili kimi daxil edilməsi Heydər Əliyevin böyük nüfuzunun və möhkəm siyasi iradəsinin qələbəsi kimi qeyd edilməyə layiqdir.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1969-1982-ci illərdə partiya və hökumətin qəbul etdiyi çoxsaylı qərarlar və sərəncamlar dövlət əhəmiyyətli proqramların həyata keçirilməsi bu dövrün Azərbaycanın dövlətçilik tarixinin xüsusi mərhələsinə çevrilməsinə səbəb olmuşdur. Həqiqətən həmin dövrdə Sovet Azərbaycanının tarixinə ən parlaq quruculuq illəri kimi daxil olmuşdur. Respublikanın iqtisadiyyatında, sənayesində, kənd təsərrüfatında qazanılmış uğurlarla yanaşı, elmi-texniki tərəqqinin nailiyyətlərinin sənayedə tətbiqi böyük nailiyyətlərlə nəticələnmişdir. Ulu öndərin müdrik və uzaqgörən siyasəti nəticəsində Azərbaycan o dövrdə bütün göstəricilər üzrə keçmiş SSRİ-də qabaqcıl respublikalardan biri səviyyəsinə çatdırılmışdır. O illərdə Heydər Əliyevin sosializm cəmiyyəti şəraitində mərkəzin təzyiqlərini dəf edərək milli-mənəvi dəyərlərimizin dirçəldilməsi, qorunması və inkişaf etdirilməsi istiqamətində yürütdüyü məqsədyönlü siyasət xalqımızın milli kimliyinin saxlanmasına və inkişaf etdirilməsinə xidmət etmişdir. Həmin siyasətin vaxtilə səpdiyi toxumlar sonralar xalqımızı milli-azadlıq mübarizəsinə, müstəqil dövlət quruculuğuna, milli dövlətçiliyimizin bərqərar olmasına aparan yollarda özünün bəhrəsini vermişdir. Bütün bunlar ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsində xalqımızın milli özünüdərkinin təşəkkülü uğrunda apardığı uğurlu siyasət nəticəsində mümkün olmuşdur.

1993-cü ilin iyununda Heydər Əliyev müstəqil Azərbaycan dövlətində xalqımızın iradəsi ilə hakimiyyətin məsuliyyətini öhdəsinə götürəndə dövlətçiliyimizin taleyinin həll olunduğu ölüm-dirim zamanı idi. Lakin Heydər Əliyev ölkəni labüd fəlakətlərdən qurtaracağına əmin idi, xalq da Heydər Əliyevə inanır, bu mürəkkəb vəziyyətdən çıxış yolunu ancaq onda görürdü. Bu, həmin illər idi ki, ölkəmizdə müstəqilliyin elan edilməsindən dərhal sonra, öncə kremlpərəst, sonra isə radikal müxalifətçi qüvvələrin hakimiyyətə yiyələnmələri, aparılan tamamilə yanlış daxili və xarici siyasət nəticəsində müstəqilliyin itirilmə təhlükəsi yaranmışdı. Məhz Heydər Əliyev Azərbaycan xalqını və respublikamızı dərin ictimai-iqtisadi böhrandan çıxarmış, böyük təhlükələrdən xilas etmiş, gələcək inkişafın mühüm təməllərini atmışdır. Bu mənada sovet dövründən başlanan və müstəqillik illərində davam etdirilən ölkəmizin bütöv bir epoxası Heydər Əliyevin adı ilə bağlıdır. Məhz həmin illərdən xalqımızın şüurunda azərbaycançılıq ideyası yaranmağa başlamışdır. Müstəqillik illərində də ulu öndər deyirdi: "İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız Sizə, bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi siyasi, mənəvi inkişafına xidmət olmuşdur".

Şübhə yoxdur ki, bütövlükdə milli ideologiyamız olan azərbaycançılığın milli dövlətçiliyə tətbiqi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. İlk dəfə 2002-ci ildə ulu öndər dünya Azərbaycanlılarının I Qurultayında azərbaycançılığı Azərbaycanın milli dövlət ideologiyası kimi müəyyən etmişdir. Heydər Əliyevin bu barədə dahiyanə şəkildə ifadə etdiyi aşağıdakı fikirlər dillər əzbərinə çevrilmiş, atalar sözü kimi qəbul edilmişdir: "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Bütün bunlar deməyə əsas verir ki, görkəmli dövlət xadimi Heydər Əliyev daim Azərbaycanın inkişaf etməsi üçün çalışmış və xalqımızın bugünkü uğurlarının təməlinin düzgün, düşünülmüş prinsiplər üzərində qurulmasında öz bilik və bacarığını əsirgəməmişdir. Yəni ulu öndər öz xatirələrində də qeyd etdiyi kimi: "1970-ci illərdə görülən işlər, yaradılan bu böyük iqtisadiyyat sənaye potensialı və neft sənayesi sahəsində görülən işlər, yaranmış potensial Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əsasıdır. Bu gün bəyan etmək istəyirəm ki, o illərdə məhz Azərbaycanın gələcəyini, bu gününü, müstəqilliyini düşünürdüm. Bu işləri görərkən mən əmin idim ki, onlar Azərbaycanın sərbəst, müstəqil yaşaması üçün əsas yaradır".

Ulu öndər Heydər Əliyev hər bir zaman, hər bir şəraitdə milli-mənəvi dəyərlərə böyük önəm vermişdir. Dünya miqyaslı siyasi və dövlətçilik təfəkkürünə, zəngin və qətiyyətli dövlət idarəçilik təcrübəsinə, polad iradəyə, ən çətin və çıxılmaz vəziyyətlərdə belə tükənməz əzm və qüdrətə malik olan Heydər Əliyev bütün həyatını həsr etdiyi doğma vətəni Azərbaycana, Azərbaycan xalqının əsrlər boyu yaratdığı zəngin mənəvi-ədəbi irsə qırılmaz tellərlə bağlı idi. O, xalqımızın həm şifahi xalq ədəbiyyatını, həm də klassik ədəbi irsini çox yaxşı bilir və dəyərləndirirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi olan müstəqil respublikamız hələ 1991-ci ildə müstəqilliyini dünyaya bəyan edərkən sivil, demokratik, hüquqi dövlət quracağı, hakimiyyətlərin bölgü prinsipinə sadiq qalacağı ilə əlaqədar üzərinə ciddi öhdəliklər götürmüşdür. Ulu öndər Heydər Əliyevə qədər hakimiyyətdə olan qüvvələr Azərbaycanın müstəqilliyinin əsas atributlarından olan konstitusiyanın qəbulu istiqamətində heç bir addım ata bilməmişdilər. Ulu öndər ölkədəki ictimai-siyasi sabitliyi və qanunçuluğu bərpa etdikdən dərhal sonra müstəqil dövlətin ilk milli Konstitusiyanın qəbulu istiqamətində qətiyyətli addımlar atmışdır. Böyük dövlət xadiminin təşəbbüsü və rəhbərliyi altında, eyni zamanda, demokratik cəhətdən inkişaf etmiş dövlətlərin mütərəqqi təcrübəsi əsasında hazırlanan, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilən əsas qanunumuz - Azərbaycan Respublikasının Konstitusiyası milli dövlətçiliyimizin inkişafında yeni mərhələyə çevrilmiş, tarixə Heydər Əliyev Konstitusiyası kimi daxil olmuşdur.

Ölkəmizdə müstəqil dövlətçilik siyasətini XXI əsrin qlobal çağırışları şəraitində, eləcə də dünyada geosiyasi maraqların toqquşduğu, dünya nizamında proqnozlara sığmayan kəskin dəyişikliklərin baş verdiyi mürəkkəb şəraitdə inamla və müvəffəqiyyətlə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin həyata keçirdiyi məqsədyönlü daxili və xarici siyasət, son on altı ildə sosial-siyasi inkişafın bütün sahələrində qazanılan uğurlar Azərbaycan Respublikasının tarixi yolunu uğurla davam etdirdiyini nümayiş etdirir. Artıq Azərbaycan ulu öndər Heydər Əliyevin yolunu daha da inkişaf etdirərək böyük nailiyyətlərə imza atmışdır. Möhtərəm Prezidentin apardığı müstəqil siyasət Azərbaycana böyük inkişaf və başucalığı bəxş edir. "Əsrin müqaviləsi"ni tamamlayan Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kəmərləri yeni tarixi epoxanın möhtəşəm magistrallarıdır. Bakı-Tbilisi-Qars Dəmir İpək yolu tarixi İpək yoluna Prezident İlham Əliyevin möhtəşəm əlavəsidir. Regionların inkişaf etdirilməsi üzrə Dövlət proqramları və həmin proqramların həyata keçirilməsi istiqamətində əldə edilmiş böyük nəticələr İlham Əliyev erasının tarixi nailiyyətidir.

*Naxçıvan Muxtar Respublikasının müstəqillik illərində başdan-başa yenidən qurulması, iqtisadi inkişaf sahəsində Azərbaycanın regionları arasında iki dəfə birinci yerə çıxması dövlətimizin böyük uğurları sırasında mühüm yer tutur. Aparılan uğurlu müstəqil xarici siyasət, multikulturalizm və tolerantlıq, islam həmrəyliyi siyasəti İlham Əliyev dövrünün böyük uğurlarındandır. Bu gün Azərbaycanın postsovet məkanının və regionun lider dövlətinə çevrilməsi Heydər Əliyev siyasətinin və müstəqil dövlətçiliyinin təntənəsidir. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin inkişaf etdirilməsi və daha da möhkəmləndirilməsi ölkəmizin işıqlı sabahlarına böyük imkan yaradır.*

***Rza TALIBOV,***
***Bakı Dövlət Universitetinin dosenti, Batumi Dövlət Universitetinin fəxri doktoru, siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Respublika Günü və Azərbaycanın diplomatik xidmətinin 100 illiyi Vaşinqtonda təntənəli şəkildə qeyd olunub

Vaşinqtondakı tarixi və mötəbər "Endryu Melon Auditorium"da 28 May - Respublika Günü və Azərbaycanın diplomatik xidmətinin 100 illiyi münasibətilə təntənəli ziyafət təşkil edilib. Təxminən min nəfərin qatıldığı ziyafətdə ABŞ Prezidenti Administrasiyasının, Dövlət Departamentinin və Pentaqonun rəsmiləri, generallar, Konqres üzvləri, digər dövlət qurumlarının nümayəndələri, habelə Vaşinqtondakı diplomatik korpusun, düşüncə mərkəzlərinin, müxtəlif ştatlardan ictimaiyyət nümayəndələri iştirak ediblər.



Tədbirdə Türkiyənin ədliyyə naziri Əbdülhamit Gül, habelə Azərbaycanla tərəfdaşlıq edən Oklahoma Milli Qvardiyasının nümayəndə heyəti də iştirak edib.

Tədbirin əvvəlində tanınmış müğənni Devid Difranko Azərbaycanın və ABŞ-ın Dövlət himnlərini ifa edib.

Sonra səfir Elin Süleymanov çıxış edərək 2019-cu ildə müsəlman Şərqində ilk demokratik respublika - Azərbaycan Xalq cümhuriyyətinin 101-ci ildönümünün qeyd olunduğunu, Cümhuriyyətin qısa müddət yaşamasına baxmayaraq, Azərbaycan xalqı üçün zəngin irs və gələcəyə yönəlik arzular yaratdığını və bunun əsasında 1991-ci ildə Azərbaycan xalqının müstəqilliyini bərpa etdiyini vurğulayıb. Azərbaycan Prezidenti İlham Əliyevin fikrini diqqətə çatdıran diplomat bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları yaşasaydı, bu gün Azərbaycanın nailiyyətləri ilə fəxr edərdilər.

Səfir, həmçinin Azərbaycan diplomatik xidmətinin 100-cü ildönümü ilə bağlı ölkəmizin bütün diplomatlarını təbrik edib, ölkəmizin Prezidentinin rəhbərliyi ilə diplomatik xidmətin Azərbaycanın güclənməsinə xidmət etdiyini vurğulayıb.

Səfir Azərbaycan-ABŞ tərəfdaşlığına toxunaraq ölkələrimiz arasında qarşılıqlı hörmət və maraqlara əsaslanan geniş əməkdaşlıq həyata keçirildiyini söyləyib. Ölkəmizin həyata keçirdiyi irimiqyaslı enerji layihələrinə ABŞ-ın dəstəyini xatırladan səfir ABŞ tərəfinə təşəkkürünü ifadə edib. Həmçinin E.Süleymanov Respublika Günü münasibətilə ABŞ prezidenti Donald Tramp və Dövlət katibi Mayk Pompeonun Azərbaycan Prezidenti və xalqına təbrikini xatırladıb.

Ziyafətdə əsas natiq qismində çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Xalq Cümhuriyyətinin müsəlman Şərqində ilk respublika olduğunu, bu respublikanın irsi əsasında hazırda Azərbaycanın Prezident İlham Əliyevin liderliyi ilə dinamik inkişaf etdiyini vurğulayıb. O, Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarının Azərbaycanın bugünkü nailiyyətləri ilə fəxr edə biləcəyinə dair dövlətimizin başçısının fikrini səsləndirib. Hazırda Azərbaycanın ABŞ-ın etibarlı və strateji tərəfdaşı olduğunu qeyd edən Hikmət Hacıyev ölkəmizin əsgərlərinin beynəlxalq sülhə töhfə verdiklərini və amerikalı əsgərlərlə çiyin-çiyinə xidmət apardıqlarını vurğulayıb. Şöbə müdiri Azərbaycanın diplomatik xidmətinin 100 illiyi ilə bağlı da təbriklərini çatdırıb.

ABŞ müdafiə katibinin köməkçisinin müavini Laura Kuper çıxış edərək ölkəmizi Respublika Günü və diplomatik xidmətin 100 illiyi ilə bağlı təbrik edib. O, Azərbaycanın ABŞ-ın strateji tərəfdaşı olduğunu vurğulayaraq ölkəmizin Əfqanıstanda və terrorçuluğa qarşı mübarizə sahəsində göstərdiyi dəstəyin həm regional, həm də qlobal sülhə əhəmiyyətli töhfə olduğunu bildirib. L.Kuper ABŞ-ın Azərbaycanla strateji tərəfdaşlığını davam etdirmək əzmini ifadə edib.

Daha sonra çıxış edən ABŞ Dövlət katibinin köməkçisinin müavini Corc Kent 101 il bundan əvvəl Şərqin ilk respublikasının Azərbaycan xalqı tərəfindən yaradıldığını vurğulayıb, bu mütərəqqi dövlətin qadınlara seçki hüququ verdiyini xatırladıb. O, Respublika Günü və diplomatik xidmətin 100 illiyi münasibətilə Azərbaycanı təbrik edib. C.Kent ABŞ-ın Azərbaycanla strateji tərəfdaşlıq həyata keçirdiyini önə çəkərək ölkələrimiz arasında bir sıra sahələrdə aparılan əməkdaşlığı qeyd edib. O, ABŞ-la Azərbaycan arasında strateji tərəfdaşlığın gücləndirilməsi üçün ölkəsinin əzmini ifadə edib.

ABŞ milli qvardiyasının komandan müavini, üçulduzlu general Daniel Hokanson çıxış edərək Azərbaycanla tərəfdaşlığın vacibliyini qeyd edib, Pentaqon, o cümlədən Oklahoma Milli Qvardiyası ilə aparılan fəaliyyətə toxunub. Eyni zamanda, Oklahoma ştatının qubernatorunun 28 may tarixinin Oklahomada Azərbaycan Milli Günü elan edilməsi barədə bəyanatı səsləndirilib.

Tədbirdə ABŞ Konqresində Azərbaycanla dostluq qrupunun həmsədri Stiv Şabot çıxış edərək Azərbaycanı 28 May - Respublika Günü ilə bağlı təbrik edib və ölkəmizin əhəmiyyətli rolunu vurğulayıb.

Konqresmen Dunkan Hanter Azərbaycanın Əfqanıstanda bəzi NATO müttəfiqlərindən daha çox əsgərinin olduğunu vurğulayaraq ölkəmizin ABŞ-ın etibarlı tərəfdaşı olduğunu vurğulayıb və buna görə də Azərbaycan dövlətinə təşəkkürünü ifadə edib.

ABŞ Dövlət Departamentinin antisemitizmə qarşı mübarizə üzrə xüsusi nümayəndəsi Elan Kar Azərbaycanda heç zaman antisemitizmin olmadığını bildirərək Birləşmiş Ştatların Azərbaycan kimi dövlətlə tərəfdaşlığından qürur duyduğunu və ölkəmizin nəinki regionda, hətta bütün dünyada nümunə rolunu oynadığını vurğulayıb.

Azərbaycan-ABŞ İqtisadi Tərəfdaşlıq Komissiyasının həmsədri, ABŞ Dövlət katibinin köməkçisi vəzifəsini icra edən Peter Has da Azərbaycan tərəfinə öz təbriklərini çatdırıb.

Daha sonra Vaşinqton şəhərinin aid olduğu Kolumbiya dairəsinin katibi Kimberli Basset 2019-cu il 28 may tarixinin ABŞ paytaxtında Azərbaycan Milli Günü elan edilməsi barədə mer Müryel Bouzer tərəfindən verilmiş bəyanatın mətnini oxuyub.

Tədbirdə qonaqlara Azərbaycanın milli mətbəxinin nümunələri təqdim edilib, eləcə də Azərbaycandan təşrif buyurmuş "Şur" musiqi qrupunun ifasında milli və dünya musiqi parçaları səsləndirilib.

**AZƏRTAC**

# Azərbaycanın və Gürcüstanın müdafiə nazirlikləri arasında ikitərəfli əməkdaşlıq planı imzalanıb

İyunun 12-də Qəbələ şəhərində Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Gürcüstanın Müdafiə naziri Levan İzoriya ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə qonaqları salamlayan Müdafiə naziri general-polkovnik Z.Həsənov Azərbaycan-Gürcüstan hərbi əməkdaşlığının regional iqtisadi layihələrin təhlükəsizliyinin təmin edilməsi, ikitərəfli, NATO-nun keçirdiyi proqramlar çərçivəsində və digər sahələrdə aparıldığını qeyd edib və bu əməkdaşlığın fəaliyyət sahələrinin daha da genişləndirilməsinin vacibliyini vurğulayıb. Dövlətlərimiz arasında əlaqələrin inkişafında ölkə rəhbərlərinin dostluq münasibətlərinin mühüm rol oynadığını deyən general-polkovnik Z.Həsənov bu cür görüşlərin əməkdaşlığımızın genişləndirilməsi baxımından zəruriliyini xüsusi qeyd edib.

Azərbaycana növbəti dəfə səfər etməsindən məmnunluğunu bildirən Gürcüstanın Müdafiə naziri bunun ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyəsinin bariz nümunəsi olduğunu deyib.

Sonra tərəflər regiondakı hərbi-siyasi vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıblar.

Sonda Azərbaycanın və Gürcüstanın Müdafiə nazirlikləri arasında 2019-cu il üçün ikitərəfli əməkdaşlıq planı imzalanıb.

# Azərbaycan və Türkiyə müdafiə nazirləri görüşüblər

İyunun 12-də Qəbələ şəhərində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akar ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə müdafiə naziri general-polkovnik Z.Həsənov qonaqları salamlayaraq Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu, bu əlaqələrin gündən-günə inkişaf etdiyini və möhkəmləndiyini vurğulayıb. Dövlətlərimiz arasında əlaqələrin inkişafında ölkə rəhbərlərinin dostluq münasibətlərinin mühüm rol oynadığını deyən general-polkovnik Z.Həsənov bu cür görüşlərin əməkdaşlığımızın genişləndirilməsi baxımından zəruriliyini xüsusi qeyd edib.

Türkiyəli nazir də öz növbəsində, Azərbaycan-Türkiyə qarşılıqlı münasibətlərinin genişlənməsində bu cür görüşlərin vacibliyindən danışıb.

Görüşdə regional və qarşılıqlı əməkdaşlığa dair digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparılıb.

# Qəbələdə Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin üçtərəfli görüşü keçirilib



İyunun 12-də Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzində Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akar və Gürcüstanın müdafiə naziri Levan İzoriya arasında üçtərəfli görüş keçirilib. AZƏRTAC xəbər verir ki, görüşdən öncə nazirlər Qəbələ şəhərindəki Şəhidlər xiyabanına gəlib "Əbədi məşəl" abidəsinin önünə, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman vətən övladlarının məzarları üzərinə gül dəstələri qoyublar.

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsi də ehtiramla yad edilib, abidəsi önünə gül dəstələri düzülüb.

Görüşdə müdafiə nazirləri regionda cərəyan edən hərbi-siyasi vəziyyət, üçtərəfli formatda hərbi əməkdaşlığın inkişaf etdirilməsi, regional layihələrin təhlükəsizliyinin təmin olunması məsələlərini müzakirə ediblər. Tərəflər, həmçinin üçtərəfli hərbi əməkdaşlıq sahəsində qarşılıqlı maraq doğuran digər aspektlər barədə ətraflı fikir mübadiləsi aparıblar.

Sonda danışıqların yekununa dair protokol imzalanıb. Sənədi Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyənin milli müdafiə naziri Hulusi Akar və Gürcüstanın müdafiə naziri Levan İzoriya imzalayıblar.

Sonra kütləvi informasiya vasitələri nümayəndələri üçün brifinq keçirilib.

Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov bildirib ki, Azərbaycan, Türkiyə və Gürcüstanın digər sahələrdə olduğu kimi, müdafiə sahəsində də əməkdaşlığı inkişaf etdirirlər. Görüşdə üç qonşu, dost dövlətin müdafiə nazirlərinin iş planına daxil olan məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Z.Həsənov üçtərəfli görüşdə Türkiyənin separatizmlə haqlı mübarizəsinin dəstəkləndiyini vurğulayaraq deyib: "Görüşdə Gürcüstanın və Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə olundu. Hərbi, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahəsində görülən işlər müzakirə edildi. Xüsusilə qeyd etmək istəyirəm ki, hərbi əməkdaşlıqda birgə təlimlər mühüm rol oynayır. İlbəil birgə təlimlərin sayı artır. Misal üçün, 2018-ci ildə Türkiyə ilə Azərbaycan arasında 7 təlim təşkil olunub. Bu il isə 13 təlimin keçirilməsi nəzərdə tutulur. Azərbaycanın və Türkiyənin təşkil etdiyi təlimlərə Gürcüstan da dəvət olunub".

Türkiyə, Azərbaycan və Gürcüstan arasında hərbi sahədə möhkəm əməkdaşlıq əlaqələrinin olduğunu deyən milli müdafiə naziri Hulusi Akar vurğulayıb ki, qarşıdakı dövrdə bu əlaqələr müdafiə və təhlükəsizlik sahəsi ilə məhdudlaşmayaraq digər sahələri də əhatə edəcək.

Göstərilən qonaqpərvərliyə görə Azərbaycan tərəfinə minnətdarlıq edən H.Akar bildirib ki, üç ölkənin birgə fəaliyyəti böyük önəm kəsb edir. Müdafiə sahəsində əməkdaşlığın genişləndirilməsinə dair imzalanan sənədlərin çox yaxında ölkələrimiz üçün faydalarını görəcəyik. Bu gün keçirilən görüşdə tərəflər mövcud işbirliyi və əməkdaşlıq potensialının perspektivlərini müzakirə etdilər. Türkiyə, Azərbaycan və Gürcüstanın birgə əməkdaşlığı çox önəmlidir.

Gürcüstanın müdafiə naziri Levan İzoriya isə qeyd edib ki, Gürcüstan gələcəkdə Azərbaycanın və Türkiyənin keçirəcəyi birgə təlimlərə maksimum şəkildə qoşulacaq. Görüşdə regional təhlükəsizlik məsələlərini müzakirə etdiklərini vurğulayan L.İzoriya bildirib ki, bugünkü toplantı xalqlarımızın təhlükəsizliyi baxımından da önəmlidir.

# Azərbaycanın məhkəmə sistemi yeni çağırışlara adekvat olaraq müasirləşir

İnkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuş müstəqil Azərbaycan Respublikası şəffaflığa və hesabatlılığa əsaslanan vətəndaş cəmiyyəti quruculuğu istiqamətində inamlı addımlar atır. Respublikamız demokratik və hüquqi dövlət quruculuğu yolunun dönməzliyini özü üçün tam yəqinləşdirərək xalqın gələcək inkişafında bu mütərəqqi dəyərlərin rolunu və əhəmiyyətini daim önə çəkir. Bu mərhələnin ən səciyyəvi cəhəti səmərəli dövlət idarəçiliyi sisteminin yaradılması məqsədilə vətəndaş cəmiyyəti institutlarının inkişafı, liberal siyasi mühitin formalaşması, insan hüquq və azadlıqlarının aliliyinə xidmət edən kompleks tədbirlərin həyata keçirilməsidir.

Xüsusilə qeyd etmək lazımdır ki, 2018-ci ilin 11 aprel seçkilərində inamlı qələbə qazanaraq səlahiyyətlərinin icrasına başlamış Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ilk günlərdən əsaslı yeniliklərə start verməsi ölkəmizdə sistem xarakterli islahatların başlandığını deməyə ciddi əsaslar verir. Məqsəd islahatların miqyas və tempini sürətləndirmək, xidmət sahələrində vətəndaş məmnunluğunu, idarəçilikdə səmərəliliyi və şəffaflığı təmin etmək, eləcə də ədalət mühakiməsinin səmərəliliyini yüksəltmək, məhkəmələrin müstəqilliyini möhkəmləndirməkdir.

İdarəçiliyin müasirləşdirilməsi, bütün fəaliyyət sferalarında ictimai rəy amilinin ciddiliklə nəzərə alınması, vətəndaşları narahat edən problemlərin operativ qaydada aradan qaldırılması, şəffaflıq, hesabatlılıq - bütün bunlar yeni mərhələdə dövlət başçısı İlham Əliyevin qarşıya qoyduğu ciddi tələblərdir. 2019-cu il 20 mart tarixində xalqa ənənəvi müraciətində İlham Əliyev cəmiyyətin digər sahələri ilə yanaşı, məhkəmə-hüquq sistemində də islahatların davam etdiriləcəyini demişdir: *"İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar - artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır - təhsil, səhiyyə sahələrində, hər bir sahədə, Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan güclənir və müasirləşir".*

Məhkəmə hakimiyyətinin özünüidarə funksiyasını uğurla həyata keçirən Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasının məqsədyönlü fəaliyyəti nəticəsində bu sahədə infrastrukturun müasirləşdirilməsi, yeni regional məhkəmələrin yaradılması, habelə hakimlərin sosial müdafiəsinin gücləndirilməsi məsələləri xüsusi diqqət mərkəzində olmuşdur. Son 10 ildə məhkəmələrə müraciət imkanlarının yaxşılaşdırılması, bölgələrdə hüquq institutlarının inkişafı məqsədilə 20-dək yeni məhkəmələr, o cümlədən, regional apelyasiya, ağır cinayətlər məhkəmələri, habelə dövlət orqanları tərəfindən vətəndaşların pozulmuş hüquqlarının bərpası məqsədilə 7 inzibati-iqtisadi məhkəmə yaradılaraq fəaliyyətə başlamışdır.

Hakimlərin seçiminə diqqət gücləndirilmiş, 2 çoxmərhələli, şəffaf və obyektiv imtahanlar nəticəsində uğur qazanmış 400-dək namizəd hakim vəzifəsinə təyin olunmuşdur. Məhkəmə islahatları nəticəsində hakimlərin ən yüksək həddədək - müddətsiz təyinatı müəyyən olunmuş, habelə seçim prosedurları təkmilləşdirilmişdir. Avropa Şurası Ədalət mühakiməsinin səmərəliliyi üzrə Komissiyası (CEPEJ) Azərbaycanda hakimlərin seçimi prosesini bilavasitə izləməklə ölkəmizin təcrübəsini digər Avropa dövlətlərinə örnək kimi göstərmişdir.

Son illər məhkəmələrin fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi - "Elektron məhkəmə informasiya sistemi"nin yaradılması, məhkəmələr üçün yeni inzibati binaların inşası, mövcud binaların əsaslı təmir olunması, ölkədə ədalət mühakiməsinin səmərəliliyinin daha da yüksəldilməsinə xidmət etmişdir.

İnsan amilinin hökumətin fəaliyyətində daim prioritet olması həyata keçirilən islahatların davamlılığını və səmərəliliyini təmin edir. Dövlət başçısının qanunvericilik təşəbbüsü ilə 2018-ci ilin 28 dekabrında Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və "Məhkəmələr və hakimlər haqqında" qanununda dəyişikliklər edilərək iqtisadi mübahisələr üzrə işlərə kağızsız, elektron qaydada baxılmasına keçilmiş, hakim və sahibkar arasında münasibətlərin tamamilə elektron qaydada tənzimlənməsi təmin edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 3 aprel 2019-cu il tarixli *"Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında"* fərmanı keyfiyyətcə yeni mərhələdə məhkəmə sisteminin müasirləşdirilməsi, hakimlərin müstəqilliyinin daha da möhkəmləndirilməsi ilə bağlı yeni hədəflər müəyyən etmişdir. Fərmana əsasən, Azərbaycan Respublikasının bütün məhkəmə sədrlərinə və hakimlərinə məhkəmə hakimiyyətinin nüfuzunun artırılması və cəmiyyətdə məhkəmələrə etimadın möhkəmlənməsi üçün fəaliyyətlərində ədalət, qanunçuluq, qərəzsizlik, aşkarlıq, hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyi kimi prinsiplərə dönmədən riayət etmək tövsiyə edilmişdir.

Hazırkı mərhələdə qarşıda duran aktual çağırışlardan biri də Azərbaycanın digər sahələrlə yanaşı, məhkəmə-hüquq sistemində insan amilini önə çəkməklə reallaşdırdığı islahatların mahiyyətini yerli və beynəlxalq ictimaiyyətə dolğun şəkildə çatdırmaq, respublikamız haqqında obyektiv təəssüratların daha da möhkəmlənməsini təmin etməkdir. Azərbaycanda ümumi məhkəmə hakimlərini birləşdirmək, onların müstəqilliyinin daha da möhkəmləndirilməsinə kömək etmək, müsbət meyilləri təbliğ etmək, habelə hüquqi maarifləndirmə işi aparmaq məqsədilə 2002-ci ildə yaradılmış Azərbaycan Respublikası Ümumi Məhkəmə Hakimlərinin İctimai Birliyi (Assosiasiyası) ötən dövrdə Azərbaycanda məhkəmə sisteminin inkişafı və müasirləşdirilməsi sahəsində görülən tədbirlərlə bağlı beynəlxalq səviyyədə təbliğat işi aparmış, bu sahədə ixtisaslaşmış mötəbər təşkilatlarla səmərəli əlaqələri genişləndirməyə çalışmışdır.

Müxtəlif ölkələrə səfərlər zamanı respublikamızın beynəlxalq nüfuzunun artdığının böyük qürur hissi ilə şahidi olmuşuq. Xüsusilə də Beynəlxalq Hakimlər Assosiasiyasının (BHA) və onun regional qrupu olan Avropa Hakimlər Assosiasiyasının (AHA) illik toplantıları ümumən dünyada respublikamız haqqında obyektiv rəyin formalaşdığına şübhə yeri qoymur.

AHA-nın bir qayda olaraq hər ilin may-iyun aylarına təsadüf edən yaz iclası bu dəfə Danimarkanın paytaxtı Kopenhagen şəhərində keçirildi. Avropa qitəsinin özünəməxsus ənənə və mədəniyyətə malik dövləti olan Danimarka təşkilatçı kimi toplantının yüksək səviyyədə keçirilməsini təmin etmişdi.

AHA-nın yaz iclasının iştirakçıları ilk olaraq Kopenhagen Universitetinin binasında toplaşmışdılar. Danimarka Hakimlər Birliyinin sədri, bu ölkənin Ali Məhkəməsinin hakimi Mikael Sjöberq qonaqları tədbirin proqramı ilə ətraflı tanış etdikdən sonra sözü AHA prezidenti Joze Manuel İgreja Matosa verdi. Cənab Joze Manuel İgreja Matos öz növbəsində tədbir iştirakçılarını səmimi salamlayaraq "Siyasilər və məhkəmələr - dəyişən münasibətlər?" mövzusunda məruzə etdi. İsveçrəli hakim Tomas Stadelman, danimarkalı parlamentar və digər nümayəndələr məruzə mövzusu ətrafında maraqlı çıxışlar etdilər. Çıxışların əsas məzmunu siyasətçilərlə məhkəmə hakimiyyəti arasındakı münasibətlər, yeni dünyada dəyişən qaydalar, hakimlərin cəmiyyətlə daha çox ünsiyyətdə olmasının zəruriliyi ilə bağlı idi.

Daha sonra söz "Amnesty İnternational" təşkilatının Danimarka üzrə nümayəndəliyinin başçısı Trine Kristenşenə verildi. O, təmsil etdiyi təşkilatın Avropanın bir sıra ölkələrinin məhkəmə hakimiyyətləri ilə sıx əlaqə saxladığını bildirərək xüsusilə Rusiya və Polşada durumun ürəkaçan olmadığını vurğuladı.

Sonra Danimarka Milli Araşdırmalar Fondları Mərkəzinin nəzdində yaradılmış beynəlxalq məhkəmələrin təcrübələrini araşdıran "iCourts" mərkəzinin rəhbəri Mikael Rask Madsen məruzə etdi. Araşdırma Mərkəzinin Kopenhagen Universitetində yerləşdiyini bildirən sədr beynəlxalq məhkəmə təcrübəsini dərindən araşdırdıqlarını və əsas diqqəti "Siyasilər və məhkəmə hakimiyyəti" mövzusunun tədqiqinə, həmçinin beynəlxalq təcrübənin öyrənilməsi və geniş coğrafiyada yayılması vacibliyinə yönəltdiklərini bildirdi. Albaniya, Azərbaycan və İngiltərə təmsilçiləri məruzəçiyə mövzu üzrə suallar verdilər və səmərəli müzakirələr aparıldı.

AHA-nın yaz iclasının rəsmi açılışı da Kopenhagen Universitetinin binasında oldu. İclasda 44 üzv ölkədən 35-ni təmsil edən hakimlər iştirak edirdilər. Azərbaycanı iclasda Ümumi Məhkəmə Hakimləri Birliyinin sədri olaraq bu sətirlərin müəllifi və Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Sənan Hacıyev təmsil edirdilər.

Danimarka Hakimlər Birliyinin sədri, bu ölkənin Ali Məhkəməsinin hakimi Mikael Sjöberq qonaqları salamlayaraq sözü BHA prezidenti cənab Pagoneyə verdi, sonuncu öz növbəsində iclas iştirakçılarına səmimi arzu və istəklərini çatdırdı.

AHA prezidenti Joze İgreja Matos da ev sahiblərini və konfrans iştirakçılarını salamladıqdan sonra gündəliyə müvafiq olaraq Mərakeş protokolunun təsdiqlənməsini təklif etdi. Konfrans iştirakçıları adıçəkilən sənədi yekdilliklə təsdiq etdilər.

Daha sonra cənab Joze İgreja Matos AHA-nın il ərzində gördüyü işlər barədə məlumat verərək məruzəyə münasibət bildirilməsini xahiş etdi. O, çıxışında Avropa məkanında hakimlərin müstəqilliyinin təmini sahəsindəki mövcud problemlərdən və bu problemlərin həlli yolunda beynəlxalq əməkdaşlığın zəruriliyindən söz açdı. Eyni zamanda, Polşa, Rumıniya və Macarıstanda məhkəmə hakimiyyəti ilə bağlı ciddi problemlərin və gərginliyin hələ də qaldığını, bununla belə, Avropa məkanında milli assosiasiyalarla əməkdaşlığın daha gücləndirildiyini diqqətə çatdırdı. Sədr hesabat ili ərzində AHA daxilində keçirilmiş tədbirlər, təşkilatın Avropa və dünya səviyyəsində məhkəmə hakimiyyəti ilə bağlılığı, tədbirlərdə iştirakı, habelə digər təşkilatlarla əməkdaşlığı və birgə layihələr barədə ətraflı məlumat verdi.

Sədr, həmçinin hesabatdakı "Üzv assosiasiyaların statusu üzrə İşçi Qrupunun işi", "Müxtəlif Avropa ölkələrində qarşıya çıxan çətinliklər", "AHA-nın büdcəsi", "AHA Dünya Hakimlər Assosiasiyası sırasında" mövzuları üzrə məlumatlar verdi. Sədrin məruzəsində əsas diqqətçəkən məqam "Müxtəlif Avropa ölkələrində qarşıya çıxan çətinliklər" məsələsi idi. İsveçrə, İtaliya, Albaniya, Fransa və Avstriya nümayəndələri söz alaraq mövzu ətrafında fikirlərini bölüşdülər. Müzakirələrdən sonra məruzə qəbul edildi.

Sonra iclasda Polşada məhkəmə hakimiyyətinin üzləşdiyi problemlər ətraflı müzakirə edildi. Cənab Matos ölkədə gedən siyasi proseslərin məhkəmə hakimiyyətinə mənfi təsir göstərdiyini, məhkəmələr və hakimlərlə bağlı qəbul olunmuş müvafiq qanunun hakimlərin müstəqilliyini təmin edə bilmədiyini təəssüflə diqqətə çatdırdı. AHA-nın iclasına dəvət olunmasına baxmayaraq Polşa Ali Məhkəməsinin sədrinin iclasda iştirak etmədiyi də bildirildi. Polşalı hakim Krystian Markieviç söz alaraq dəstək üçün AHA və BHA rəhbərliyinə, eləcə də Polşaya dəstək verən milli birliklərə minnətdarlığını bildirdi. Eyni zamanda, etiraf etdi ki, Polşa Hakimlər Assosiasiyası beynəlxalq əməkdaşlıqdan yetərincə yararlana bilmir. Bildirdi ki, ölkəsində məhkəmə hakimiyyətinə hücumların əsas səbəbi onun müstəqil olmasına yol verməməkdir. Müzakirələrdən sonra Polşada məhkəmə hakimiyyətinin vəziyyəti ilə bağlı qətnamə qəbul edildi.

Sonra AHA-nın üzv assosiasiyalarındakı vəziyyəti ilə bağlı məlumatı dinlənildi. İclas iştirakçıları İşçi Qrupu sədrinin məruzəsi ilə əvvəlcədən tanış olduqları üçün sənədin geniş müzakirə olunmadan qəbulu məqbul sayıldı. Məruzədə, həmçinin Türkiyə, Polşa, Macarıstan və Sloveniyada hakimlərin problemlərinin olduğu xatırlandı. Sonra "Brüsselə gedən yollar" İşçi Qrupunun üzvü, fransalı hakim Selin Parisot qrupun işi ilə bağlı məlumat verdi və onun hesabat xarakterli məlumatı müsbət dəyərləndirildi.

Onu da bildirim ki, iclasda qardaş Türkiyə ilə yanaşı, Azərbaycanla bağlı da bəzi reallığa uyğun olmayan qərəzli iddialar səslənsə də, bu iddiaların əsassızlığını konkret faktlar əsasında ortaya qoyduq. Azərbaycan Ümumi Məhkəmə Hakimləri Assosiasiyasının təmsilçisi olaraq BHA və AHA-nın tərkibində 10 il səmərəli fəaliyyət göstərməyimizi, bir çox ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq və dostluq münasibətləri qurmağımızı iştirakçıların nəzərinə çatdırdım. Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Sənan Hacıyev iclasda çıxış edərək ölkəmizdə məhkəmə hakimiyyətinin mövcud vəziyyəti, aparılan mütərəqqi islahatlar, habelə məhkəmələrlə digər hakimiyyət qolları arasında qanuna əsaslanan sivil münasibətlər barədə ətraflı məlumat verdi. O, ötən iclasda Helsinki Komissiyasının Azərbaycan Hakimlər Assosiasiyası ilə bağlı qaldırdığı məsələlərə toxunaraq həmin komissiyanın suallarına ətraflı cavab verildiyini, cavabın BHA-nın katibliyi tərəfindən bütün üzv assosiasiyalara paylandığını diqqətə çatdırdı.

Helsinki Komissiyasının Azərbaycan Ümumi Məhkəmə Hakimləri Birliyinə ünvanladığı iradların müdafiəçisi, Niderland Hakimlər Assosiasiyasının nümayəndəsi Sənan Hacıyevin çıxışına münasibət bildirərək Azərbaycanda Məhkəmə Hakimiyyəti sahəsində görülən işləri razılıqla vurğuladı, eyni zamanda, guya müəyyən problemlərin olduğunu da iddia etdi. Niderlandlı nümayəndənin Azərbaycan təmsilçisinə ünvanlanmış sual və replikalarına münasibət bildirən BHA prezidenti cənab Pagone birmənalı şəkildə bildirdi ki, hansısa kənar təşkilatlar üzv assosiasiyalar barəsində intizam problemi qaldıra bilməzlər. O, həmçinin Qazaxıstan, Polşa və Macarıstandan fərqli olaraq, Azərbaycanda məhkəmələrin fəaliyyəti və hakimlərin müstəqilliyi üçün hansısa ciddi problemin olmadığını vurğuladı. Cənab Matos bu baxımdan BHA prezidenti cənab Pagonenin fikirlərinə dəstək verərək Niderland nümayəndəsinin replikasını yersiz hesab etdi.

Daha sonra Yunanıstan, Rumıniya və İslandiya nümayəndələri öz ölkələrindəki durumla bağlı məlumat verdilər. Sonda AHA-nın növbəti iclasının 2020-ci ilin may ayında Portuqaliyanın Porto şəhərində keçiriləcəyi bildirildi və Portuqaliya nümayəndəsi təqdimatla çıxış etdi. AHA-nın yaz iclasının iştirakçıları Danimarka Ali Məhkəməsinin fəaliyyəti ilə də yaxından tanış oldular.

Ümumilikdə AHA-nın Kopenhagen şəhərində keçirilmiş yaz iclası Avropa ölkələrinin ölkəmizin məhkəmə hüquq-sistemində həyata keçirilən mütərəqqi islahatlar barədə məlumatlandırılması, ümumilikdə Azərbaycanla bağlı obyektiv rəyin formalaşdırılması, bəzi qərəzli iddiaların tamamilə zərərsizləşdirilməsi baxımından mühüm platforma oldu.

***Əladdin CƏFƏROV,***
***Nizami Rayon Məhkəməsinin sədri,***
***Azərbaycan Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının sədri***

# Ədəbiyyat İnstitutunda "Böyük publisistika ənənələrinin müasir təqdimatı" mövzusunda elmi sessiya keçirilib

İyunun 12-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Azərbaycan" qəzetinin 100 illiyinə həsr olunmuş "Böyük publisistika ənənələrinin müasir təqdimatı" mövzusunda elmi sessiya keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli açaraq "Azərbaycan" qəzetinin 100 ildə keçdiyi şərəfli inkişaf yolundan danışıb. Akademik təqdimatı keçirilən "100 yaşlı "Azərbaycan" kitabında "Azərbaycan" qəzetinin tarixindən, uğurlarından, hətta problemlərindən bəhs edildiyini diqqətə çatdırıb. O, qəzeti mətbuatımızın etibarlı mənbəyi, zəngin qaynağı kimi səciyyələndirib. Vurğulayıb ki, "Azərbaycan" qəzeti rəsmi dövlət orqanı olaraq həm bütün xalqı, həm də müxtəlif baxışlı ziyalıları öz ətrafına toplaya bilib. Mətbuat tarixində məktəb yaratmış bu qəzetin Ceyhun Hacıbəyli, Xəlil İbrahim kimi baş redaktorları olub. Bu gün də həmin ənənələr davam etdirilir.

Akademik bildirib ki, "Azərbaycan" qəzeti ümummilli lider Heydər Əliyevin də sevdiyi, inandığı, etibar etdiyi qəzet olub. Həmçinin ölkə başçısı İlham Əliyev qəzetin yubileyinin keçirilməsi üçün geniş imkanlar yaradıb.

Daha sonra AMEA-nın Humanitar Elmlər Bölməsinin akademik-katibi, akademik Teymur Kərimli "Azərbaycanda rəsmi dövlət mətbuat nümunəsi: ənənə və müasirlik" mövzusunda məruzə ilə çıxış edib. O, məruzəsində "Azərbaycan" qəzetini nəşrə başladığı dövrdən istiqlal yolunda bir ordu qədər xidmət göstərən mətbuat orqanı olaraq təqdir edib. Eyni zamanda, məruzədə qəzetin keçdiyi inkişaf yolu, redaktorları və digər əməkdaşları barədə ətraflı məlumat verib.

Akademik Nizami Cəfərov qəzetin digər üstünlükləri ilə yanaşı, Azərbaycan ədəbi dilinin normalarının qorunmasında xüsusi seçildiyini nəzərə çatdırıb.

Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev səhifələrində Ədəbiyyat İnstitutunun əməkdaşlarına da yer verdiyi üçün qəzetin kollektivinə təşəkkürünü bildirib.

İnstitutun Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri, professor Bədirxan Əhmədov qəzetin tarixinə nəzər salaraq qeyd edib ki, "Əkinçi" qəzeti ilk mətbuat nümunəsi olduğu kimi, "Azərbaycan" qəzeti də ilk rəsmi dövlət qəzeti olmuşdur. O, əvvəl Gəncədə, sonra Bakıda nəşr olunan qəzetin Cümhuriyyətin süqutundan sonra həbs taleyi yaşamağa məhkum edildiyini bildirib.

Filologiya üzrə elmlər doktoru Elçin Mehrəliyev "Azərbaycan"ın bayramı Azərbaycan ədəbiyyatında bayramdır" mövzusunda məruzəsində təqdimatı keçirilən kitab haqqında hərtərəfli məlumat verib, qəzetin müxtəlif tarixi mərhələlərdə sınaqlardan çıxdığını mübarizlik nümunəsi kimi örnək göstərib.

Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov çıxışında hörmətli alimlərə, elm adamlarına təşəkkürünü bildirib. Qeyd edib ki, "Azərbaycan-90" kitabında yalnız Cümhuriyyət dövrü əhatə olunubsa, bu kitabda qəzetin bütün fəaliyyətinə işıq salınıb.

Sonda Nizami Gəncəvinin "Leyli və Məcnun" əsərinin Ədəbiyyat İnstitutu tərəfindən çap edilmiş nadir nüsxəsi "Azərbaycan" qəzetinə hədiyyə olunub.

# Beynəlxalq konfransda "Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı" mövzusunda məruzə dinlənilib

Polşanın Varşava Universitetində "İnsanlığa qarşı ağır cinayətlər: XX əsrdə Azərbaycan və Polşa xalqlarının tarixi əsasında" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.



AMEA-nın Tarix İnstitutundan AZƏRTAC-a verilən məlumata görə, konfransın təşkilatçıları Varşava Universitetində fəaliyyət göstərən Azərbaycanşünaslıq Mərkəzi və universitetin siyasi elmlər və beynəlxalq tədqiqatlar fakültəsidir. Tədbir Azərbaycanın Polşadakı səfirliyi, Tarix İnstitutu və Xarici İşlər Nazirliyinin nəzdindəki Azərbaycanın Beynəlxalq İnkişafa Yardım Agentliyinin dəstəyi ilə reallaşıb.

Konfransın açılışında Azərbaycanın Polşadakı səfiri Həsən Həsənov, Varşava Universitetinin Şərqşünaslıq fakültəsinin dekanı Pyotr Taraxa, həmin fakültənin Türkologiya və Orta Asiya xalqları kafedrasının rəhbəri Aqata Bareya və başqaları çıxış ediblər. Səfir Həsən Həsənov çıxışında Azərbaycan-Polşa əlaqələrinin tarixindən danışıb.

Açılışda Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov "Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı" mövzusunda geniş məruzə ilə çıxış edib. O bildirib ki, erməni-daşnak quldurları Azərbaycanın türk-müsəlman əhalisinə qarşı soyqırımı cinayəti törədiblər: "Sovet dönəmində soyqırımı cəlladları qəhrəman kimi təqdim edilib. Anastas Mikoyan "26-lar"ın tarixini saxtalaşdırıb. O bildirirdi ki, guya Hindistanın Milli Arxivində olub və Şaumyan Hindistana aparılmayıb. Amma biz sübut etdik ki, Mikoyan və oğlu Hindistanın Milli Arxivində olmayıb, onlar elmi ictimaiyyəti aldadıblar".

Pyotr Taraxa Varşava Universiteti ilə Tarix İnstitutu arasında elmi əlaqələrin inkişafına görə Yaqub Mahmudova təşəkkür məktubu təqdim edib.

Beynəlxalq konfransda Tarix İnstitutunun əməkdaşları - elmi işlər üzrə direktor müavini Cəbi Bəhramov "Azərbaycanlıların Ermənistan SSR ərazilərindən - tarixi torpaqlarından sürgün olunması insanlığa qarşı ağır cinayətdir" və elmi katib İradə Əliyeva "Şimal-Qərbi Azərbaycanda çar Rusiyasının zorakı dini siyasəti" mövzularında məruzələrlə çıxış ediblər. Bundan başqa, polyak alimlərinin "Xocalı soyqırımına dünyanın reaksiyası", "Azərbaycan və Polşaya sovet hərbi müdaxiləsinin nəticələri" və digər mövzularda məruzələri dinlənilib.

Tarix İnstitutunun nümayəndə heyəti Polşaya səfər çərçivəsində Vrotslav Universitetində "Koroğlu" dastanının tərcüməçisi, tanınmış polyak şərqşünası Aleksandr Xodzkonun xatirə lövhəsini ziyarət ediblər.

# Müasir dövlət idarəçiliyinin təşkilati əsasları: "15 il innovativ inkişaf yollarında"

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA), Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə dövlət qulluqçuları və ASAN könüllüləri üçün növbəti səyyar seminar keçirilib. AZƏRTAC xəbər verir ki, Şəki şəhərində keçirilən seminarda Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov "Dövlət idarəçiliyində innovativ texnologiyalar: Azərbaycanın təcrübəsi" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə bildirilib ki, Azərbaycan Respublikası müstəqilliyini 28 il öncə bərpa etməsinə baxmayaraq, qısa müddətdə inklüziv və davamlı inkişaf sahəsində yüksək uğurlara imza atıb. Bu uğurlar beynəlxalq qurumların və müstəqil ekspertlərin hesabatlarında öz əksini tapıb.



Məruzədə beynəlxalq təşkilatların 2018-2019-cu illərdə dərc edilən rəsmi statistik məlumatları təhlil olunub. Eyni zamanda, Dünya İqtisadi Forumunun təsisçisi və fəxri prezidenti Klaus Şvabın hazırladığı qlobal hesabat nəzərdən keçirilib. Bildirilib ki, həmin hesabatda Azərbaycan dünyanın ən səmərəli sosial siyasət həyata keçirən ölkəsi kimi xarakterizə olunub. Azərbaycan bu baxımdan iqtisadi göstəriciləri daha üstün ABŞ, Almaniya, Danimarka, Kanada, Fransa, Yaponiya kimi ölkələri geridə qoyub.

Qeyd edilib ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi innovativ idarəetmə texnologiyalarının nəzəri əsaslarının işlənilməsi, onların təcrübədə tətbiqi nəticəsində bir sıra iqtisadi və sosial göstəricilərinə görə müasir Azərbaycan Respublikası hazırda yüzillik tarixi olan və dünya liderləri sayılan ölkələrlə rəqabət aparmaq vəziyyətindədir.

Seminar iştirakçıları Azərbaycanda tətbiq edilən və dünya miqyasında ilk dəfə işlənilmiş sinergetik, komplimentar və kompensasion texnologiyaların mahiyyəti barədə məlumatlandırılıb. Sözügedən texnologiyaların işlənilməsi və həyata keçirilməsi prosesində ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xüsusi rolunun olduğu diqqətə çatdırılıb. Bildirilib ki, məhz dövlət başçısının tətbiq etdiyi idarəçilik texnologiyaları sayəsində Davos İqtisadi Forumunun 2018-ci ilin yanvarında dərc olunan hesabatında inklüziv inkişaf indeksinə görə Azərbaycan dünyada üçüncü yerdə qərarlaşaraq iqtisadi imkanları daha yüksək olan ölkələrin çoxunu geridə qoyub. Bu və bənzər təqdirəlayiq nəticələrin ölkənin səmərəli idarə olunması və iqtisadi imkanlardan maksimum istifadə edilməsindən xəbər verdiyi vurğulanıb.

Milli Məclisin deputatı, Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, professor Elman Nəsirov "Dünyada və bölgədə yeni təhlükəsizlik mühitinin formalaşmasına Azərbaycan Respublikasının töhfəsi" mövzusunda məruzəsində qloballaşma dönəmində təhlükəsizlik anlayışının daha geniş məna kəsb etdiyinə diqqət çəkib. "Dövlət qulluğunda innovasiyaların yeni mərhələsi" mövzusunda məruzə ilə çıxış edən Dövlət İdarəçilik Akademiyasının Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Rəcəb Rəhimli innovasiyaların dövlət sektorunda tətbiq olunmasının əsas məqsədləri və dövlət qulluğunda innovasiyaların tətbiqinin dövlət qulluğunun inkişafı strategiyası ilə bağlılığı haqqında məlumat verib. O, ölkədə dövlət qulluğu sistemində innovasiyaların tətbiqi zamanı səmərəli idarəetmə texnologiyalarının seçimi, dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi, dövlət qulluğunda səriştə modelinin tətbiq edilməsi ilə dəyişikliklərə təkan verən təşkilati mühitin yaradılması, potensial uğurlu layihələrin stimullaşdırılması, xərc və resursların həcminin düzgün müəyyənləşdirilməsi kimi önəmli amillərə xüsusi diqqət yetirildiyini vurğulayıb. Bu istiqamətdə reallaşdırılan məqsədyönlü siyasətin ölkənin ictimai-siyasi, iqtisadi, mənəvi-ideoloji və sosial həyatını kökündən dəyişdiyi, vətəndaş cəmiyyəti institutlarının inkişafına təkan verdiyi bildirilib.

Seminarın yekununda iştirakçıların sualları cavablandırılıb.

# Prezident Administrasiyasının məsul işçiləri və mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, iyunun 12-də Masallı, Şəmkir, Balakən, İsmayıllı və Laçın rayonlarının sakinləri ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, digər müraciətlər isə operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün nəzarətə götürülüb.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. Bütün bunlar, ilk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Dövlət başçısının da dediyi kimi, yürüdülən siyasətin təməlində Azərbaycan vətəndaşı, onun rifah halının yaxşılaşdırılması dayanır. Son vaxtlarda imzalanan fərman və sərəncamlar, sosial-iqtisadi sahədə aparılan islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır.

Həmçinin görüşlərdə məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına əməl olunmasının vacibliyi bir daha vurğulanıb.

* * *

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev iyunun 12-də Quba rayonunda vətəndaşları qəbul edib. AZƏRTAC xəbər verir ki, qəbulda Quba və Qusarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər iştirak ediblər.

Müraciətlər əsasən dövlət mənzil fonduna məxsus xüsusi təyinatlı yaşayış sahələrinin verilməsi, vahid aylıq müavinətin təyin edilməsi və məşğulluq məsələləri ilə bağlı olub.

Qəbul zamanı vətəndaşlara məcburi köçkünlərin sosial problemlərinin həlli, o cümlədən mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məşğulluq imkanlarının genişləndirilməsi ilə bağlı həyata keçirilən dövlət tədbirləri haqqında ətraflı məlumat verilib. Bildirilib ki, Prezident İlham Əliyev məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsinə daim diqqət göstərir. Məcburi köçkünlər üçün yeni qəsəbələr salınır, onlara mənzillərin verilməsində ədalət və şəffaflıq təmin edilir.

Qeyd olunub ki, sosial müdafiəyə xüsusi ehtiyacı olan vətəndaşların problemlərinə həssaslıqla yanaşan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hələ də ağır vəziyyətdə yaşayan məcburi köçkünlərin yeni mənzillərə köçürülməsi ilə bağlı tapşırığının icrası davam etdirilir.

Qəbul zamanı məcburi köçkünlərin qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunub. Digər məsələlərin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov isə iyunun 12-də Xaçmaz rayonunda vətəndaşları qəbul edib.

* * *

İyunun 12-də Ədliyyə nazirinin müavini Vilayət Zahirov Samux şəhərində Samux rayonundan, həmçinin ətraf şəhər və rayonlardan olan vətəndaşların qəbulunu keçirib.

Qəbul zamanı ədliyyə fəaliyyəti ilə bağlı müraciətlərə baxılıb, hər bir vətəndaş diqqətlə dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə həllini tapıb. Digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

* * *

Gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov iyunun 12-də Zaqatala rayonunda Zaqatala və Balakən rayonlarından olan vətəndaşları qəbul edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, qəbulda 7-dən çox vətəndaş iştirak edib.

Vətəndaşlardan ikisi gənclər sahəsi, biri idman avadanlığının, biri isə fəxri adın verilməsi ilə bağlı müraciət edib. Digər üç müraciətdən isə biri Gənclər evinin tikintisi, ikisi isə şəxsi məsələ ilə bağlı olub.

Müraciətlərin bir qismi yerindəcə həll edilib. Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlər qeydə alınaraq aidiyyəti üzrə göndəriləcəyi bildirilib. Bir qisim müraciət isə baxılması üçün icraya yönəldilib.

# Ötən ay qiymətlərdə ucuzlaşma qeydə alınmışdır

Dövlət Statistika Komitəsi cari ilin yanvar-may aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri barədə məlumat açıqlayıb. Bildirilir ki, ilin əvvəlindən ötən 5 ay ərzində 2018-ci ilin müvafiq dövrünə nisbətən qiymətlər ümumilikdə 2,4, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları 2,3, qeyri-ərzaq malları 1,3, əhaliyə göstərilən ödənişli xidmətlər 3,4 faiz bahalaşmışdır.

Ötən ay isə aprel ayına nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 0,4, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları 1,1 faiz ucuzlaşmış, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 0,1 faiz bahalaşmışdır. Qeyri-ərzaq mallarının qiymətləri sabit qalmışdır.

Ay ərzində uzun düyünün, qarabaşaq yarmasının, mal, qoyun və toyuq ətinin, suda bişmiş kolbasanın, sosiskanın, təzə balığın, pasterizə olunmamış üzlü südün, yoqurtun, brınza pendirin, kərə yağının, bananın, alçanın, çiyələyin, qozun, fındığın, kələmin, göyərtinin, xiyarın, pomidorun, bibərin, badımcanın, soğanın, sarımsağın, kartofun, quru noxudun, mərcinin, çayın, pivənin və tütün məmulatlarının qiymətlərində ucuzlaşma, yumru düyünün, manna yarmasının, makaron məmulatlarının, sterilizə olunmuş üzlü südün, şəkərli qatılaşdırılmış südün, xamanın, tərkibində qursaq mayası olan bərk və yumşaq pendirin, kəsmiyin, yumurtanın, günəbaxan, qarğıdalı və zeytun yağlarının, limonun, almanın, şabalıdın, çuğundurun, yerkökünün, şəkər tozunun, dondurmanın, qəhvənin, kakaonun, mineral suların, kola içkisi və limonadın qiymətlərində bahalaşma müşahidə olunmuşdur. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

May ayında aprel ayına nisbətən əhaliyə göstərilən ödənişli xidmətlərdən mənzillərin icarə haqqı, paltarların təmiri, təmizlənməsi və kirayəsi, məişət cihazlarının təmiri, stomatoloji, bərbərxana və kosmetoloji xidmətlərin, hotel və mehmanxanalar tərəfindən göstərilən gecələmə, eləcə də dəmiryolu və hava nəqliyyatı və beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətləri bahalaşmışdır. Digər ödənişli xidmətlərin qiymətlərində isə ciddi dəyişikliklər qeydə alınmamışdır.

***"Azərbaycan"***

# İlin sonunadək daha 13 aqropark yaradılacaq

## İlham ƏLİYEV: "Azərbaycanda kənd təsərrüfatının inkişafına göstərilən diqqət və dəstək hesab edirəm ki, dünya miqyasında ən yüksək səviyyədədir və təqdirəlayiqdir"

Ölkəmizdə digər sahələrdə olduğu kimi, aqrar sektorda da dərin və hərtərəfli islahatlar aparılır və bu çərçivədə sahənin idarə edilməsində, kadrların hazırlanmasında, fermerlərə maliyyə və texniki dəstək göstərilməsində mühüm dəyişikliklər baş verib.

Məqsəd kənd təsərrüfatında daha səmərəli üsullardan istifadə edərək məhsul istehsalını artırmaqla həm ölkənin ərzaq təhlükəsizliyinə, həm də məhsul ixracına nail olmaqdır.

Bugünədək fermerlər torpaq vergisindən savayı bütün növ vergilərdən azad edilib. Üstəlik, fermerlərə istifadə etdikləri yanacaq və sürtkü yağlarına görə dövlət büdcəsindən subsidiya ödənilir. Eyni zamanda, kənd təsərrüfatında sahibkarlıqla məşğul olanlara güzəştli şərtlərlə gübrə, toxum, ağac tingləri və damazlıq heyvanlar satılır. Yaranan fərq dövlət büdcəsindən ödənilir. Bununla yanaşı, fermerlərə müasir və mütərəqqi texnika və texnologiyalardan istifadə etmək üçün "Aqrolizinq" ASC tərəfindən xidmətlər göstərilir.

Dövlətin əsas hədəfi kiçik və orta kəndli təsərrüfatlarına yardım etməkdir. Bu məqsədlə hər il dövlət büdcəsindən fermerlərə milyon manatlarla güzəştli kreditlər verilir.

Dövlət güzəştli kreditlərlə fermerlərin maliyyə problemlərinin həllinə kömək edir ki, onlar yaradılan imkandan bəhrələnərək öz təsərrüfatlarını genişləndirsinlər.

Son dövrlər aqrar sektorda məhsul istehsalının artırılması məqsədilə iri fermer təsərrüfatları və aqroparklar da yaradılır. Qeyd edək ki, inkişaf etmiş ölkələrdə də aqroparklardan geniş istifadə edilir. Ona görə ki, aqroparklar iri torpaq sahələrinə malik olur. Burada yüksək texnika və texnologiyalardan istifadə etmək daha asandır. Eyni zamanda, belə təsərrüfatlara kapital qoymaq istəyən iş adamları çoxdur. Çünki istehsaldan emala, emaldan satışa qədər bütün proseslər bir mərkəzdən idarə olunur. Belə hal investorlara gəlir və çıxarlara nəzarət etməyə imkan yaradır.



Ölkəmizdə də aqroparklara maraq böyükdür. Belə müəssisələrin yaradılmasına dövlət yardımçı olur. Aqroparklar üçün dövlət vəsaiti hesabına infrastruktur yaradılır. Bu məqsədlə ümumilikdə büdcədən 219 milyon manat investisiya yatırılıb. İndiyədək investisiya dəyəri 469 milyon manatdan çox olan 17 aqroparkın yaradılmasına 111 milyon manat güzəştli kredit verilib. Bununla yanaşı, 15 aqropark üzrə dəyəri 564 milyon manat olan 25 layihəyə investisiya təşviqi sənədi verilib, cari ilin sonunadək daha 13 aqroparkın istifadəyə verilməsi nəzərdə tutulub. Ümumilikdə isə ölkə üzrə 45 aqroparkın yaradılması planlaşdırılıb. Bunlardan 28-i bitkiçilik, 17-si heyvandarlıq üzrə ixtisaslaşacaq. Sözügedən aqroparkların sahəsi 192 min hektardır. Həmin təsərrüfatların yaradılması kənd təsərrüfatı məhsullarının istehsalını artırmaqla yanaşı, bölgələrdə on milyonlarla insanın işlə təmin olunmasına imkan verəcək.

Prezident İlham Əliyev aqrar sektorda aparılan islahatları və alınan nəticələri yüksək dəyərləndirərək demişdir: "Əminəm ki, kənd təsərrüfatının sürətli inkişafı, subsidiyaların verilməsi, fermerlərin texnika ilə təchiz edilməsi, yanacağın, gübrənin güzəştli şərtlərlə verilməsi, kompleks tədbirlər, üstəgəl ciddi islahatlar yaxın gələcəkdə çox gözəl nəticələrə gətirib çıxaracaq. Artıq biz nəticələri görürük... İnsanların məşğulluğu artır, rifah halı yaxşılaşır, bütün ölkədə böyük infrastruktur layihələri icra edilir".

Hacıqabul, Cəlilabad, Salyan, Xaçmaz, Füzuli, Saatlı, Şamaxı, Yevlax, Ağdaş, Şəmkir, Siyəzən, İsmayıllı, Samux və Şəmkir rayonlarında 44 min hektar sahədə 22 sahibkarlıq subyekti tərəfindən 32 iri fermer təsərrüfatı yaradılıb. Ümumi dəyəri 162,4 milyon manat olan bu təsərrüfatların yaradılmasına Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 61,6 milyon manat güzəştli kredit verilib. Hazırda fəaliyyətdə olan təsərrüfatlarda müasir suvarma sistemləri qurulub, hər hektardan 58-60 sentner arpa və buğda, 120 sentnerədək dənlik qarğıdalı götürülür.

Son illər təkcə dövlətin maliyyə dəstəyi ilə müasir texnologiyalara əsaslanan 43 quşçuluq təsərrüfatı, 23 cins heyvandarlıq kompleksi, 8 süd və 6 ət emalı müəssisəsi, 39 intensiv bağçılıq və üzümçülük təsərrüfatı, 43 müasir istixana kompleksi, 16 meyvə-tərəvəz emalı müəssisəsi, 51 logistik mərkəz və 22 taxıl anbarı kompleksi yaradılıb. Bu da istehlak bazarının sabitləşməsində, ixrac potensialının artmasında, idxaldan asılılığın azalmasında, ümumilikdə ərzaq təhlükəsizliyinin möhkəmlənməsində əhəmiyyətli rol oynayır.

***Rüstəm KAMAL, "Azərbaycan"***

# Beynəlxalq aləm

## Dünyada hər on uşaqdan biri işləmək məcburiyyətindədir



BMT-nin Uşaq Fondu (UNICEF) uşaq əməyinə qarşı mübarizəni gücləndirməyə çağırmışdır. Bu barədə "Alman dalğası" radiostansiyası xəbər verir.

Bütün dünyada 152 milyon oğlan və qız (təxminən hər on uşaqdan biri) ailənin yaşamasına kömək etmək üçün işləmək məcburiyyətindədir. Özü də bu uşaqların təqribən yarısı (73 milyon) təhlükəli şəraitdə çalışır.

Ən çox uşaq (72 milyon) Afrikada işləmək məcburiyyətindədir. İkinci yerdə Asiya ölkələridir (62 milyon). Uşaq əməyinə praktiki olaraq iqtisadiyyatın bütün sektorlarında rast gəlmək olur. Hər on uşağın yeddisi kənd təsərrüfatında işləyir.

## Kamerunda 37 nəfər "Boko Haram"ın qurbanı oldu



Kamerunda "Boko Haram" terrorçu təşkilatının silahlılarının hücumu nəticəsində 37 nəfər, o cümlədən 21 hərbçi və 16 dinc sakin həlak olmuşdur. Bu barədə yerli KİV xəbər verir.

Məlumata görə, hadisə Darak adasında Çad gölündə baş vermişdir. Təhlükəsizlik qüvvələrinin əməkdaşları terrorçu təşkilatın 15 üzvünü həbs etmişlər.

"Boko Haram" 20 ilə yaxındır regionda fəaliyyət göstərir. 2009-cu ildən bəri 20 min nəfərdən çox adam ekstremist təşkilatın qurbanı olmuşdur.

## Ebola qızdırması Uqandaya qayıtdı



Uqandada uzun fasilədən sonra Ebola qızdırmasına yoluxma faktı qeydə alınmışdır. Xəstələnmiş beş yaşlı uşaq ölkəyə ailəsi ilə birlikdə qonşu Konqo Demokratik Respublikasından gəlmişdir. Yerli xəstəxanada müayinə zamanı uşaqda təhlükəli virus aşkar edilmişdir. Faktla bağlı səhiyyə naziri Ceyn Rut Asenq rəsmi bəyanatla çıxış etmişdir. Hadisəni Dünya Səhiyyə Təşkilatı da təsdiqləmişdir. Uşaq və onun ailə üzvləri dərhal xəstəxanada təcrid edilmişlər.

Xatırladaq ki, ötən ilin avqust ayından bəri Konqo Demokratik Respublikasının şərqində ölümcül xəstəliyin epidemiyası müşahidə olunur. İndiyədək hökumət 2 mindən çox yoluxma halını təsdiqləmişdir. Ebolaya yoluxmuş xəstələrin üçdə ikisi dünyasını dəyişmişdir.

Uqanda Afrika miqyasında yüksək tibbi yardım səviyyəsinə malik olmasına baxmayaraq, bir neçə ildir Marburq və Ebola qızdırmalarının baş qaldırmasından əziyyət çəkir.



## Sudan müxalifəti ümumxalq tətilini dayandırdı

Vətəndaş itaətsizliyi hərəkatına başçılıq edən Sudan Peşəkarlar Assosiasiyasının (SPA) nümayəndələri bildirmişlər ki, ötən bazar günü elan etdikləri ümumxalq tətilini dayandırır və ölkədə hakimiyyətə gəlmiş Hərbi Şura ilə danışıqları bərpa edir. Bu barədə SPA-nın Twitterdəki səhifəsində məlumat verilmişdir.

Assosiasiyanın liderlərindən biri Mədəni Abbas Mədəni qeyd etmişdir ki, danışıqlar birbaşa deyil, efiopiyalı vasitəçinin iştirakı ilə həyata keçiriləcək. Dialoq zamanı keçid hökumətinin əsas orqanı olacaq suveren şura adlandırılan qurumun yaradılması məsələsi müzakirə ediləcək.

Sudanda kütləvi vətəndaş itaətsizliyi aksiyasının ilkin məqsədi Hərbi Şuranı hakimiyyətdən kənarlaşdırmaq və keçid vətəndaş hökuməti yaratmaq idi.

## Yəmənli qiyamçılar Səudiyyə Ərəbistanı aeroportunu atəşə tutdular



Yəmənin "Ənsar Allah" (hövsilər) hərəkatının tərəfdarları Səudiyyə Ərəbistanının Əbha şəhərindəki hava limanını raket atəşinə tutmuşlar. Bu barədə "əl-Məsirə" telekanalı xəbər verir.

Məlumata görə, Səudiyyə Ərəbistanının cənub-qərbində, Yəmənlə sərhəddə yerləşən hava limanında uçuşlar müvəqqəti olaraq dayandırılmışdır. Hücumun digər təfərrüatları barədə məlumat verilmir.

Son bir ay ərzində hövsilər raket mərmiləri və pilotsuz təyyarələr vasitəsilə Səudiyyə Ərəbistanı ərazisini müntəzəm olaraq atəşə tutmuşlar. Onlar bir neçə dəfə Yəmənlə sərhədin yaxınlığında yerləşən Nəcran və Cizan şəhərlərinin hava limanlarına hücum etmişlər.

# Qarabağdakı təxribatlar Ermənistandakı xaosun nəticəsidir

Ermənistan hakimiyyətinin davranışları sələfi kimi məsuliyyətdən uzaq təhlükəli fəaliyyət sərgilədiyini göstərir. Hər halda işğalçı ölkənin baş naziri Nikol Paşinyanın və müdafiə naziri Tonoyanın cəbhədəki son olaylar barədə fərqli açıqlamalar verməsi də bunun təsdiqi sayıla bilər.

Qeyd edək ki, Nikol Paşinyan Sankt-Peterburqda forum zamanı cəbhə xəttindəki təxribatlara ölkə rəhbərliyinin hər hansı aidiyyətinin olmadığını bildirib. Lakin müdafiə naziri David Tonoyan Azərbaycan hərbçisinin qətlə yetirilməsi ilə bağlı şəxsən göstəriş verdiyini və bu əməliyyatı icra edən erməni hərbçilərə yüksək mükafat təqdim etdiyini söyləyib.

Bu isə kifayət qədər ciddi ziddiyyətləri meydana qoyur. Belə vəziyyət onu göstərir ki, ölkədə strukturlar arasında çəkişmələr getdikcə daha böyük vüsət alır. Belə təxribatların arxasında xarici düşmən obrazı yaratmaqla daxili problemlərdən cəmiyyətin fikirini yayındırmaq durur. Çünki Ermənistanda daxili qarşıdurma getdikcə kəskinləşir.

### 12 şəhərdə etiraz aksiyaları

Sosial-iqtisadi sahədə yaşanan problemlər siyasi müstəvidə keçmiş hərbi xunta ilə Nikol Paşinyan arasında münasibətlərin gərginləşməsi ilə xarakterizə edilməkdədir. Belə görünür ki, ölkədə yaşanan sosial-iqtisadi problemlərdən keçmiş hakimiyyət Paşinyana qarşı istifadə etməyə çalışır. Bu məqsədlə etiraz aksiyaları da təşkil olunur. Məsələn, bu günlərdə Nikol Paşinyanın əleyhdarları Yerevanda və ölkənin daha 12 şəhərində etiraz aksiyaları keçiriblər.

Aksiya təşkilatçılarından Artur Danielyan qeyd edib ki, aksiya "Yalanın doğulması" şüarı altında keçirilib. Danielyanın sözlərinə görə, Yerevanın 11 inzibati rayonunda və ölkənin 12 şəhərində keçirilən etirazlara xeyli adam qoşulub. Polis aksiyalarda iştirak edən 30 nəfəri saxlayıb: "Bu o deməkdir ki, Paşinyanın yalan iddiaları təkcə iqtisadiyyat, demoqrafiya, xarici siyasət və təhlükəsizlik məsələləri ilə bağlı deyil, həmçinin daxili siyasətə də aiddir. Hazırda onun reytinqini yalnız hüquq mühafizə orqanları və rayon administrasiyalarının əməkdaşları qoruya bilər".

### Xarici borc 7 milyard ABŞ dollarına çatıb

Paşinyanın əleyhdarları ölkədə hər sahədə vəziyyətin xeyli pisləşdiyini bildiriblər. Məsələn, qeyd olunur ki, 2019-cu ilin ilk rübündə Ermənistana yatırılan birbaşa xarici investisiya axını cəmi 7,6 milyon dollar təşkil edib və bu, çox kiçik rəqəmdir və keçən ilin analoji dövrü ilə müqayisədə dəfələrlə az olub. Belə ki, 2018-ci ilin ilk rübündə Ermənistana yatırılan birbaşa investisiyalar 83,6 milyon dollar təşkil edib. Yaranmış vəziyyət azsaylı investorların da Ermənistandan üz çevirdiyini göstərir.

Eyni zamanda ölkənin borcu da durmadan artır. Ermənistan maliyyə naziri Atom Cancuqazyan qeyd edir ki, artıq 2018-ci ilin sonunda Ermənistanın dövlət borcu 6,923 milyard dollara çatıb. Onun sözlərinə görə, ümumi dövlət borcunun 6,373 milyard dolları faktiki olaraq hökumətin, 550 milyon dolları Mərkəzi Bankın payına düşüb. Hökumətin borcunun 1,39 milyard dolları daxildən alınıb. Dövlət borcunun ümumdaxili məhsula nisbəti dəyişərək 51,4 faizini təşkil edib.

Bütün bunlar Koçaryan-Sarkisyan koalisiyası tərəfindən Paşinyana qarşı fəal şəkildə istifadə olunur. Erməni politoloq Yervand Bozoyan Yerevanla keçmiş hakimiyyət təmsilçiləri arasında vəziyyətin daha da pisləşəcəyini proqnozlaşdırır. Bildirir ki, Yerevanla separatçılar arasında gərgin münasibətlər Qarabağdakı "seçkilərlə" bağlıdır: "Paşinyan hakimiyyətə gəldikdən sonra parlamentdə üstünlüyü ələ keçirdi. O, indi çalışır ki, məhkəmə hakimiyyətinə də nəzarəti ələ alsın. Hazırda Paşinyan üçün Qarabağdakı hakimiyyətdə ona tərəfdaş olmayan şəxsin oturması qəbuledilməzdir. Maraqlı məqam odur ki, Qarabağda bir-biri ilə mübarizə aparan qüvvələr Paşinyanla əlaqələrə sahib deyillər. Bəziləri Paşinyanın Qarabağdakı adamının Araik Arutyunyan olduğunu deyirlər, lakin onun oradakı reytinqi çox aşağıdır. Birbaşa tərəfdaşı olmadan Paşinyan meydanı özü üçün təmizləməyə cəhd edir, yəni Arutyunyanın potensial rəqiblərini hədəfə götürür".

### Keçmiş hərbi xuntaya "beşinci kolon" yardımı

Terrorçu fəaliyyəti ilə tanınan "Sasna Tsrer" Partiyasının rəhbəri Jirayr Səfilyan bildirib ki, Paşinyan keçmiş hakimiyyətdən və Rusiya faktorundan çəkinməyərək qəti şəkildə Qarabağda istəyinə nail olmalıdır. O vurğulayır ki, keçmiş hərbi xuntaya "beşinci kolon" da yardım edir: "Ermənistanda olan "beşinci kolon"a Rusiyadakı qüvvələr rəhbərlik edir. İndi bu "beşinci kolon" Qarabağda yerləşdirilib. Biz son aylar ərzində fərqli komissarların, emissarların yerlərdə lazımi fəaliyyətin yoxlanılması məqsədiylə gəldiyinə şahid oluruq. Onların missiyaları uğursuzluğa düçar olub. Qarabağın abxaziyalaşdırılması ilə bağlı bütün cəhdlər uğursuzluqla nəticələndi".

Nikol Paşinyanı tərifləyən Səfilyan məhz onun sayəsində Karen Karapetyanın hakimiyyətə gətirilmək planının fiaskoya məruz qaldığını deyib. O, "beşinci kolon"un Ermənistanda hakimiyyətin xalq nümayəndəsinə keçməsindən qorxduğunu bildirib: "Beşinci kolon" çalışır ki, hakimiyyət uğursuzluğa düçar olsun. Onlar Nikol Paşinyandan qorxmurlar. Onlar dəyişikliyin xalqın öz iradəsini ifadə etməsi nəticəsində meydana gəlməsindən və bu rəhbərin uğur qazanacağı təqdirdə, inqilabın davam etməsindən qorxurlar. Onların qarşısındakı hədəf bunu neytrallaşdırmaqdır. "Beşinci kolon"un qısamüddətli hədəfi Ermənistan və Qarabağda idarəolunan xaos yaratmaqdır. Belə durumda Paşinyan mümkün qədər Qarabağa müdaxilə etməli və burada Sarkisyan rejiminin qalıqlarını təmizləməlidir".

### Qütbləşmə dərinləşir

Artıq erməni cəmiyyətində qütbləşmə dərinləşir. Bu prosesin əsas təkanverici faktoru regionçuluqdur. Yeni Koçaryan-Sarkisyan koalisiyası ilə yeni erməni iqtidarı arasında ziddiyyət daha da dərinləşir. Belə durum bütövlükdə ölkədə yeni-yeni ziddiyyətlərə və parçalanmalara yol açır.

Erməni politoloq Manvel Sarkisyan bununla bağlı deyib: "Bizdə yeni ziddiyyətlər fonunda alternativ fikirlərə belə düşməncəsinə yanaşılır. Ermənistanda hüquq və məsuliyyət haqqında ifrat yayğın təsəvvürlər mövcuddur. Biz o dərəcədə hər şeyə şübhə etməyə və dəyərsizləşdirməyə vərdiş etmişik ki, istənilən sağlam düşüncə xəncər-bıçaqla qarşılanır və şübhə altına alınır. Bu durum erməni cəmiyyətini sürətlə parçalayır".

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

**Azərbaycanın Milli qəhrəmanları**

# Vüqar Hüseynovun xatirəsi yad edildi

Sulutəpə qəsəbəsində fəaliyyət göstərən Cəbrayıl rayonu Daşkəsən kənd orta məktəbində Azərbaycanın Milli Qəhrəmanı Vüqar Hüseynovun xatirəsi anıldı. Vüqar Hüseynovun adını daşıyan bu məktəbdə onun anadan olmasının 50 illiyinə təsadüf edən belə bir tədbirin keçirilməsi hamının ürəyindən xəbər verdi. Tədbirin əvvəlində Dövlət himni səsləndirildi və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.



Məktəbin direktoru İlqar Zalov xatırlatdı ki, Milli Qəhrəmanın atası Tofiq müəllim 10 ildən çox burada direktor müavini işləyib. Bu gün səhhəti ilə bağlı tədbirdə iştirak edə bilmir, qardaşları Həbib və Fuad buradadırlar.

Rayon icra hakimiyyəti başçısının birinci müavini Arif Fərzəliyev qeyd etdi ki, təzəlikcə "Cəbrayıllı Milli Qəhrəmanlar" kitabı işıq üzü görüb və orada Vüqar Hüseynovun igidliyi də öz əksini tapıb.

Rayon Təhsil şöbəsinin müdiri Zamiq Qurbanov məlumat verdi ki, tərtib edilən plana uyğun olaraq qəhrəmanlarımız haqqında silsilə tədbirlər keçiririk. V.Hüseynovun qısa, lakin mənalı ömür yoluna ekskurs edən Z.Qurbanov qəhrəmanların həyatının özünün bir tərbiyə nümunəsi, dərin bir fəlsəfə olduğunu dedi.

Qəhrəmanın qardaşı Həbib Hüseynov onunla bağlı xatirələrini danışdı və tədbirin təşkilatçılarına minnətdarlığını bildirdi:

- Vüqar vətən, torpaq uğrunda canını əsirgəmədi. Son döyüşdə 12 nəfər polis yoldaşını ölümdən xilas edərək özü əbədiyyətə qovuşdu. Ulu öndər Heydər Əliyevin imzası ilə ona Azərbaycanın Milli Qəhrəmanı adı verilməsi bizim təsəllimiz və qürurumuzdur. Gələcək nəsli belə qəhrəmanları nümunə göstərərək tərbiyə etməliyik ki, həyatda öz layiqli yerlərini tuta bilsinlər. Hansı işin-peşənin sahibi olsalar da, şərəflə yaşamağı bacarsınlar.

Daşkəsən kəndinin nümayəndəsi Qabil Quliyev isə vaxtilə Vüqara dərs dediyini söylədi. Xatırladı ki, o, yaxşı oxuyur, hüquqşünas olmaq istəyirdi. Sonradan Xüsusi Təyinatlı Milis Dəstəsinə qoşuldu, döyüşlərə yollandı. Xocalı, Ağcakənd və bir sıra döyüş bölgələrində qəhrəmancasına döyüşdü. 22 yaşında şəhid oldu. Şəhidlər isə heç vaxt unudulmur, əbədiyaşarlıq qazanır.

Tədbirin bədii hissəsində şagirdlərin ifasında vətənpərvərlik mövzusunda şeirlər səsləndirildi, Vüqar Hüseynovun döyüş yolunu əks etdirən slayd nümayiş olundu və qəhrəmanın həyatından səhnəciklər şəklində epizodlar göstərildi.

***"Azərbaycan"***

# Atəşkəs rejimi 18 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan, 60 millimetrlik minaatanlardan (8 mərmi) da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 18 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Şıxlar, Abdinli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.


## BİLDİRİŞ

Gəncə Regional Mədəniyyət İdarəsi 21 may 2019-cu il tarixdə əsaslı təmir xərcinin satın alınması ilə əlaqədar verilmiş açıq tender elanında təyin olunmuş tender təkliflərinin verilməsi və zərflərin açılması vaxtını iddiaçıların xahişini nəzərə alaraq başqa günlərə keçirmişdir.

Təkliflərin verilməsi 12 iyul 2019-cu il saat 17:00-dək, zərflərin açılması 15 iyul 2019-cu il saat 15:00-da həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan"qəzetinin 26 aprel və 13 may 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına təxirəsalınmaz qəzaların qarşısının alınması üçün təmir-bərpa işlərinin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən iş həcmlərinə aydınlıq gətirilməsi səbəbi ilə tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı **27 iyun 2019-cu il saat 16:00-a**, təkliflərin açılışı isə **28 iyun 2019-cu il saat 16:00-a** dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarə olunması departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (*hikmat.qasimov@azersu.az* +99412 431-47-67 (2249).

***Tender komissiyası***

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 27.05.2019-cu il tarixdə keçirilmiş "Bakı Metropoliteni" QSC üçün birləşdirici qutuların açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "Bakı Mexaniki Təmir" ATSC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə LOT-1 üzrə 12.06.2019-cu il tarixdə ƏDV daxil 71199,36 (yetmiş bir min yüz doxsan doqquz manat 36 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 18 aprel, 02 və 28 may 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına polietilen boru və fitinqlərin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı **24 iyun 2019-cu il saat 16:00-a**, təkliflərin açılışı isə **25 iyun 2019-cu il saat 16:00-a** dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarə olunması departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (*hikmat.qasimov@azersu.az* +99412 431-47-67 (2249).

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatın inzibati binasının qarşısında avtomobillərin giriş və çıxışının tənzimlənməsi üçün şlaqbaumun kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 18 iyun 2019-cu il saat 15:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

## "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC içməli bulaq suyunun satın alınması üçün *kotirovka sorğusu elan edir*

"İstehlak Mallarının Ekspertizası Mərkəzi" 2400 ədəd dispenser 19 litrlik içməli bulaq suyunun və 2400 ədəd 0.5 litrlik içməli bulaq suyunun kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.

Maraqlanan təşkilatlar 012-493-47-83 (3133) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər 18 iyun 2019-cu il saat 17:00-a kimi qəbul edilir.

**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Xaqani 82,**
**"İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-nin inzibati binası.**

***Tender komissiyası***

*Təkrar*

# Azərbaycan Respublikasının Mərkəzi Bankı nəqliyyat vasitələrinin satın alınması üzrə açıq tender elan edir

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq 2 (iki) ədəd nəqliyyat vasitəsinin satın alınması üzrə açıq tender keçirir.

Tender proseduru 16 iyul 2019-cu il tarixdə saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə Azərbaycan dilində tender təklifi (tender təklifi 29 avqust 2019-cu il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1(bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *iddiaçıların son 2 (iki) il ərzində malların satışı sahəsində təcrübəsinin olması və əsas korporativ müştəriləri barədə məlumatlar. Son 2 (iki) il ərzində xidmət göstərilən müştərilərin adları və göstərilən işlərin açıqlaması verilməlidir;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını ən geci 15 iyul 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 04 iyul 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İddiaçılar tenderdə iştirak haqqı kimi Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına 100 (bir yüz) manat məbləğində vəsait köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004,**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**SWIFT BIK: NABZAZ2C**

Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamenti.

Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Malların təqdim edilmə müddəti: satınalma müqaviləsi imzalandığı gündən 60 (altmış) gün müddətində.

Qiymətləndirmə meyarları: qiymət amili və zəmanət şərtləri.

Tenderdə iştirak etmək istəyən hər bir şəxs iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

Tender üzrə əlaqələndirici şəxs: Zöhrab Səfərəliyev (İnzibati departament). Telefon: 493-11-22, daxili (101).

***Tender komissiyası***

*Təkrar*

# "Bakı Metropoliteni" QSC "B-3" stansiyası ərazisində yerləşən su anbarında nasosun yığılması və həmin su anbarından stansiyaya yanğın əleyhinə su xəttinin təchizatı işlərinin satın alınması üzrə açıq tender elan edir

Tender 1 (bir) LOT üzrə keçirilir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. "B-3" stansiyası ərazisində yerləşən su anbarında nasosun yığılması və həmin su anbarından stansiyaya yanğın əleyhinə su xəttinin təchizatı işlərinin satın alınması**

**İştirak haqqı - 200 manat**
**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **04 iyul 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **12 iyul 2019-cu il saat 17:00-a** qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına, "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **15 iyul 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# Azərbaycan Milli Elmlər Akademiyası Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu açıq tender elan edir

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT 1- AMEA akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun 90 illik yubileyinin keçirilməsi məqsədilə yubiley və konfrans tədbirlərinin keçirilməsi işlərinin satın alınması

**İştirak haqqı: 300 manat**

**Az 1025 , Bakı şəh., Xocalı pr. 30**
**VÖEN: 2000146301**
**Hesab №: AZ78CTRE00000000000004137901**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h №: AZ41NABZ01360100000000003944**
**SWIFT BIK: CTREAZ22**
**Büdcə təsnifatının kodu - 142319**
**Büdcə səviyyəsinin kodu - 7**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Az 1025, Bakı şəh., Xocalı pr. 30 ünvanından ala bilərlər.

Əlaqələndirici şəxs: Paşayeva Mehriban İsmayıl qızı

Əlaqə nömrəsi: 012-490-13-29

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **04 iyul 2019-cu il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **11 iyul 2019-cu il saat 16:00-a** qədər AZ 1025, Bakı şəh., Xocalı pr. 30 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **12 iyul 2019-cu il saat 16:00-da** AZ 1025, Bakı şəh., Xocalı pr. 30 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# Dövlət Sosial Müdafiə Fondunun server avadanlıqlarına, fond tərəfindən həyata keçirilən elektron xidmətlərə, informasiya ehtiyatlarına və sistemlərinə dəstəyin göstərilməsi xidmətlərinin satın alınması ilə əlaqədar Dövlət Sosial Müdafiə Fondu açıq tender elan edir

**Tender 1 LOT üzrə keçirilir.**

**LOT 1** - Dövlət Sosial Müdafiə Fondunun server avadanlıqlarına, fond tərəfindən həyata keçirilən elektron xidmətlərə, informasiya ehtiyatlarına və sistemlərinə dəstəyin göstərilməsi xidmətlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu Bakı şəhəri, H.Zərdabi pr. 80 ünvanından ala bilərlər.

**İştirak haqqı: 1000 (bir min) manat**
**VÖEN (DSMF): 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN (DXA): 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**H/H: AZ46CTRE00000000000007018504**
**SWIFT BIK: CTREAZ22**

İştirak haqqı heç bir halda qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının vergi şəhadətnaməsinin və nizamnaməsinin təsdiq edilmiş surəti;*
- *iddiaçının bank rekvizitləri haqqında məlumat;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş mənfəət vergisi bəyannaməsinin surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *"Fərdi məlumatların informasiya ehtiyatlarının formalaşdırılması və informasiya sistemlərinin yaradılması, onlara xidmət göstərilməsi fəaliyyəti"nə dair lisenziyanın təsdiq edilmiş surəti;*
- *bənzər layihələr üzrə iş təcrübəsini təsdiq etmək üçün belə layihələrin həyata keçirildiyi ən azı 3 (üç) müəssisə və təşkilatdan tövsiyə məktubu;*
- *ixtisas uyğunluğunun müəyyənləşdirilməsi üçün sənədlər;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **08 iyul 2019-cu il saat 17:00-dək,** tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **16 iyul 2019-cu il saat 17:00-dək,** Bakı şəhəri, H.Zərdabi pr. 80 ünvanına təqdim etməlidirlər.

İddiaçıların təklifləri **17 iyul 2019-cu il saat 15:00-da** Bakı şəhəri, H.Zərdabi pr. 80 ünvanında Dövlət Sosial Müdafiə Fondunun Aparatında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti dərman, sarğı ləvazimatlarının və materiallarının satın alınması ilə əlaqədar açıq tender elan edir

Tender 1 LOT üzrə keçirilir:

**- Dərman, sarğı ləvazimatlarının və materiallarının satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu AZ1110, Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134 (telefon: (012) 568-46-25) ünvanından ala bilərlər.

İştirak haqqı: **2000 manat**

**VÖEN: 1003853391**
**H/h: AZ41CTRE00000000000002947601**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (tender təklifi təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **29 iyul 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **08 avqust 2019-cu il saat 18:00-a** qədər AZ1110, Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **09 avqust 2019-cu il saat 16:00-da** Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi, 134 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

# Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası şəbəkə infrastrukturunun və server otağının yenilənməsi işinin satın alınmasına dair açıq tender elan edir

Dövlət satınalmalarını tənzimləyən normativ hüquqi sənədlərdə göstərilən hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi dövlət mənsubiyyətindən asılı olmayaraq Azərbaycan Respublikasında keçirilən dövlət satınalma prosedurlarında iddiaçı kimi iştirak edə bilərlər.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və reyestrdən çıxarış) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *tender təklifi iki nüsxə (əsli və surəti) Azərbaycan dilində (tender təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında - tender təklifinin qüvvədə olma müddətindən ən azı 30 bank günü çox qüvvədə olmalıdır);*
- *son bir ili əhatə edən maliyyə dövriyyəsini əks etdirən bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi və digər müvafiq orqanlardan arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti və Məcburi Dövlət Sosial Sığorta üzrə Hesabat (işçi sayı);*
- *digər sənədlər.*

Tender proseduru **17 iyul 2019-cu il saat 16:00-da** Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasında, 3-cü mərtəbə akt zalında (Bakı şəhəri, Bülbül prospekti, 27) keçiriləcəkdir.

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını **16 iyul 2019-cu il saat 18:00-a** qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci **08 iyul 2019-cu il saat 18:00-a** qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Bakı şəhəri, Bülbül prospekti, 27 ünvanında yerləşən inzibati binasına (Maliyyə və satınalmalar idarəsinə) təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İştirak haqqı **500** (beş yüz) manat təşkil edir və tenderin nəticələrindən asılı olmayaraq geri qaytarılmır. Tenderdə iştirak haqqı Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının aşağıdakı hesabına köçürülməlidir:

**Bank: ASC "Xalq" Bankının "Sahil" filialı**
**Bank VÖEN: 2000296061**
**Müxbir hesab: AZ24NABZ01350100000000067944**
**Kod: 510675**
**SWIFT: HAJCAZ 22**
**İBAN: AZ92HAJCNCRAZN00900071310001**
**VÖEN: 1403372311**

Malgöndərənlər (podratçılar) ixtisas uyğunluğunun müəyyənləşdirilməsi sənədlərində və tenderin əsas şərtlər toplusunda şərh edilmiş ixtisas meyarlarına və prosedurlarına əsasən qiymətləndiriləcəkdir.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

Tenderdə iştirak etmək istəyən şirkətlər iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Bakı şəhəri, Bülbül prospekti, 27 ünvanında yerləşən inzibati binasından (Maliyyə və satınalmalar idarəsi) Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər. Tender üzrə əlaqələndirici şəxs: Maliyyə və satınalmalar idarəsinin aparıcı mütəxəssisi Rüstəm Kərimov, **rustam.karimov@fimsa.az**, tel.:+99412 493-50-58, daxili: 285, faks: 498-12 14.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsindən Valeh Ələsgərov, Kamran Nəbizadə, Mirkazım Kazımov, Rövnəq Abdullayev, Mirzəcan Xəlilov, Mixail Zabelin, əməkdaşlar Şamil Hüseynov və Süreyya Abdullayeva Milli Məclisin deputatı Əliağa Hüseynova əzizi

**NAMİQ HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyevə qardaşı

**NİZAMİ MƏHƏRRƏMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyi Milli Məclisin deputatı Əliağa Hüseynova əzizi

**NAMİQ HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Müşfiq Əmirova atası

**VAQİF MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıtdan Zakir Fərəcov Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyevə qardaşı

**NİZAMİ MƏHƏRRƏMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıtdan Zakir Fərəcov Milli Məclisin deputatı Əliağa Hüseynova əzizi

**NAMİQ HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyevə qardaşı

**NİZAMİ MƏHƏRRƏMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli, komitənin üzvləri və əməkdaşları Milli Məclisin deputatı Əliağa Hüseynova əzizi

**NAMİQ HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyinin rəhbəri, fövqəladə və səlahiyyətli səfir Vaqif Sadıqova anası

**XALİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Milli Məclisin deputatı Əliağa Hüseynova əzizi

**NAMİQ HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9052
Sifariş 1915
Qiyməti 40 qəpik